*Şahid Şükürov**

# AZƏRBAYCANIN GÜC TƏTBİQ ETMƏK HÜQUQU

**Annotasiya**

*Üç onillikdən artıq müddətdə Azərbaycan təcavüzə məruz qalmış və ərazilərinin əhəmiyyətli hissəsi işğal altında olmuşdur. Bu işğal altında olan ərazilər beynəlxalq hüquqa görə həmişə Azərbaycanın ərazisi olaraq tanınmışdır. Amma tanınma dövlətin bu ərazilərdə suveren hüquqlarından istifadə və onları tətbiq etməsi üçün kifayət etməmişdir. Ən önəmlisi isə bu üç onillik ərzində Azərbaycan gündəlik olaraq təcavüzkarın silahlı hücumlarının ünvanı olmuşdur. Bu silahlı hücumları dayandırmaq, ərazilərinin işğalına son qoymaq və bu ərazilər üzərində suverenliyini bərpa etmək üçün Azərbaycan qırx dörd gün davam edən müharibəni aparmış və qalib gəlmişdir. Beynəlxalq hüquq baxımından Azərbaycanın hərbi əməliyyatları, bir dövlətin ərazisini işğaldan çeyrək əsr keçdikdən sonra azad edə bilərmi sualını yenidən gündəmə gətirmişdir. Başqa sözlə, dövlətin işğalda olan ərazisini uzun müddət keçdikdən sonra azad etmək üçün güc tətbiq etmək hüququ varmı? Ümumiyyətlə, bu hallarda beynəlxalq hüquqda gücün statusu nədir? Bu baxımdan Azərbaycanın güc tətbiq etmək hüququ nədən ibarətdir? Hazırki məqalədə bu suallara cavab axtarılmışdır.*

**Abstract**

*For more than three decades Azerbaijan confronted aggression and major parts of its territory were under occupation. According to international law these occupied territories were always recognized as territories of Azerbaijan. But mere recognition was not enough to use and implement sovereign rights of the state in these territories. Most importantly, during these three decades Azerbaijan was subject to armed attacks of aggressor on a daily basis. In order to stop aggression, to end occupation of its territories and restore its sovereignty over these territories Azerbaijan started and won a war in a time laps of forty-four days. From the perspective of international law Azerbaijan's military operation re-opened the question of whether an occupied territory can be liberated by force more than a quarter century after such occupation took place? With other words, have the state right to use force to end occupation of its territory decades after cease-fire? What, at all, is (for these cases) the status of force under international law? Thus, what is the right of Azerbaijan to use force? In this article we tried to find answers to these questions.*

## MÜNDƏRİCAT

Giriş ........ 99

I. "Güc" barədə ........ 101

  A. Təbiətdə güc ........ 101

  B. Dil problemləri ........ 101

  C. Hüquqda "güc" – hüququn gücü və gücün hüququ barədə ........ 103

II. Beynəlxalq hüquqda "güc" və "güc"-ün tətbiq edilməsi barədə ........ 106

* Hüquq üzrə fəlsəfə doktoru (Dr. jur, Almaniya), LL.M. Eur (Almaniya).

A. Hərbi Gücün Tətbiq Edilməsi ....... 107
B. Beynəlxalq hüquqda "güc tətbiq edilməsi"nin məhdudlaşdırılması barədə ... 108
C. Dövlətlərin güc tətbiq etmək hüququ ....... 109
D. Özünümüdafiə və güc tətbiq etmək hüququ ....... 111
E. "Güc" tətbiqi ilə təhdid etmək barədə ....... 113
F. Ərazi münaqişələri və güc tətbiqi ....... 116
III. Azərbaycanın güc tətbiq etmək hüququ ....... 118
A. Azərbaycanın Nizamnaməyə əsaslanan güc tətbiqetmə hüququ ....... 119
B. Azərbaycanın müdafiə xarakterli güc tətbiq etmə hüququ/işğala qarşı güc tətbiq edilməsi ....... 120
C. Qarabağ münaqişəsi və Azərbaycanın güc tətbiq etmək hüququ ....... 121
Nəticə ....... 126

## Giriş

Güc və onun tətbiq edilməsinə ehtiyac, gücün tətbiq edilməsi ilə məqsədlərə nail olma insan təbiətinin ayrılmaz hissəsidir. "Güc" fitri istək, ehtiyac və üstünlük amilidir. "Güc"-ün psixoloji, hərbi, iqtisadi, sosial, mənəvi olmaqla müxtəlif təzahürləri vardır. Hazırki yazının məqsədi isə beynəlxalq hüquqda hərbi "güc"-ün nəzərdən keçirilməsidir.

İnsanların yarandığı ilk gündən "güc"-ün əldə edilməsi, tətbiq edilməsi, güc tətbiqi ilə hədələmək və güc tətbiqi müqabilində nələrə isə nail olmaq mövcud olan təcrübədir. Dövlətlər insanların formalaşdırdığı quruluşlardır və güc, eləcə də güc tətbiqi ilə bağlı vərdişlər bu quruluşlar tərəfindən də davam etdirilmişdir. Bu baxımdan "güc" və onun tətbiqi insan təbiətinin ayrılmaz parçası kimi dövlət daxili və dövlətlərarası münasibətlərin əsas vasitəsinə çevrilmişdir.

Bununla belə, tarix boyu dövlət daxilində baş vermiş inqilablar (Fransa, Almaniya, İngiltərə və s. inqilablar) milli hüquqda "güc"-ün tətbiqinin məhdudlaşması, (güc tətbiqinin yalnız dövlət orqanlarının inhisarına alınması) mütərəqqi cinayət və mülki hüquq münasibətlərinin formalaşması ilə nəticələnmişdir.[1] Millətlərarası (dövlətlərarası) münasibətlərdə isə XX əsrin ilk 50 illində baş tutmuş dağıdıcı müharibə təcrübələri millətləri vahid təşkilatda (Birləşmiş Millətlər Təşkilatı) birləşməyə və "güc tətbiqi və təhdidi"-ni vasitə kimi nizamlamağa vadar etmişdir.

"Güc tətbiqi"-nin məhdudlaşdırılması sahəsində millətlərin son bir əsrə yaxın dövrdə əldə etdikləri uğurlara baxmayaraq, XX əsrin ortalarına qədər "güc tətbiq etmək" millətlərin təbii hüququ olaraq bilinirdi. Dövlətlər güc tətbiq etməklə istilalar edir və ərazilərini genişləndirirdi. Birinci Dünya

[1] Louis Henkin, Revolutions and Constitutions, 49 La. L. Rev. (1989).

Müharibəsi və onun dağıdıcı nəticələri bu yanaşmanı beynəlxalq münasibətlər müstəvisində dəyişdi. Belə ki, artıq dövlətlər beynəlxalq münasibətlərində müəyyən istisnalar xaric olmaqla, ilk əvvəl olduqca uğursuz bir şəkildə güc tətbiq etməkdən çəkinmək istiqamətində addımlar atmağa başladı. Yalnız Birləşmiş Millətlər Təşkilatının (BMT) yaranması ilə gücün tətbiqi və güc tətbiqi ilə hədələmək BMT Nizamnaməsinin 2(4)-cü maddəsi ilə məhdudlaşdırıldı.[2] Təbii hesab edilən "güc tətbiq etmək" hüququ, "güc tətbiq etməkdən çəkinmək" məhdudiyyəti ilə əvəz edildi və öhdəlik halına gətirildi

Məhdudiyyətin tətbiqini dövlətlər güclərinin ölçüsünə müvafiq olaraq tanıyıb ona riayət edirdilər. Məhdudiyyətin hələ də qüvvədə olmasına baxmayaraq, ABŞ, İsrail, Böyük Britaniya, Rusiya kimi məhdudiyyəti pozan dövlətlər onun (mövcud) olmadığına deyil, ona olan istisnalara istinad ediblər, yaxud məhdudiyyətdən yeni istisnalar yaratmağa (humanitar müdaxilə, hökumətin dəvəti və s.) çalışırdılar.

Amma "güc tətbiqi"-nin məhdudlaşdırılması heç də "güc"-dən istifadənin tam qadağan edilməsi deyildir. Belə bir qadağa beynəlxalq hüquq normalarına, o cümlədən özünümüdafiə hüququna zidd olardı. Eynilə, "güc tətbiqi"-nin məhdudlaşdırılması "güc tətbiq etmək hüququ"-nun olmaması da deyildir. Millətlərin və dövlətlərin müxtəlif hallarda (daxildə və yaxud xaricdə) "güc tətbiq etmək hüququ" mövcuddur. Eləcə də, Azərbaycanın güc tətbiq etmək hüququ vardır.

Azərbaycan dövləti məhdudiyyətin şamil edildiyi qonşu dövlətin Azərbaycana qarşı bu məhdudiyyəti pozması halı ilə üzləşdiyi üçün Azərbaycanın "güc tətbiq etmək hüququ" dedikdə ilk ağıla gələn məhz BMT Nizamnaməsinin 2(4)-cü maddəsinin pozulması ilə ortaya çıxan Azərbaycanın Qarabağ bölgəsinin dağlıq hissəsi ilə bağlı ərazilərə Ermənistanın iddiası ilə ortaya çıxmış münaqişə və bu münaqişə çərçivəsində Azərbaycanın güc tətbiq etmək hüququdur.

Bəs Azərbaycan hansı dərəcədə güc tətbiq etmək hüququna malikdir?

Məqalədə məhz bu kontekstdə Azərbaycanın həm münaqişə çərçivəsində, həm də ümumi olaraq "güc tətbiq etmək" hüququ barədə məlumat veriləcəkdir.

Araşdırma üçün ilk əvvəl "güc" nədir sualı cavablandırılacaqdır. Bu xüsusda "güc" anlayışı, anlayışın beynəlxalq və milli hüquqda istifadəsi, güc tətbiqi hüququnun olub-olmaması, hansı hallarda güc tətbiq etmənin mümkün olması, eləcə də "güc tətbiq etməklə hədələmək" ifadəsinin mənası təhqiq ediləcəkdir. "Güc"-ün mənası araşdırılarkən əsas olaraq ona beynəlxalq münasibətlərdə hansı mənanın yükləndiyi və BMT

[2] BMT Nizamnaməsi, maddə 2(4), https://www.un.org/en/sections/un-charter/chapter-i/index.html (son baxış 25 yanvar, 2021).

Nizamnaməsinin 2(4)-cü maddəsində "güc" dedikdə nəyin nəzərdə tutulduğuna xüsusi diqqət ayrılacaqdır.

"Güc"-ün mənası müəyyən edildikdən sonra Azərbaycanın güc tətbiq etmək hüququ araşdırılacaq və ölkənin hansı ölçüdə məhdudiyyətin subyekti olması və hansı ölçüdə hüquqdan istifadə edə bilməsinə aydınlıq gətiriləcəkdir.

## I. "Güc" barədə

Güc olduqca çoxmənalı məfhumdur. Anlayış olaraq dəqiq elmlərdə və humanitar elmlərdə fərqli "güc"-lər görülür. Bununla belə, humanitar elmlərdə istifadə olunan "güc" məfhumu və onun təzahürlərinin əsasını dəqiq elmlərin müəyyən etdiyi "güc" təşkil edir.

"Güc" təbiət hadisəsidir və təbiət qanunları ilə idarə edilir. Bu baxımdan "güc"-ün nə olduğunu anlamaq üçün fizika elmi baxımından "güc"-ün nə olmasına baxılacaqdır.

İnsan təbiətin bir parçası kimi "güc"-ün bütün təzahürlərinə tabe olan varlıqdır. İnsan bu təzahürlərdən istifadə edib yeni icadlar edir və bu təzahürləri yeni icadlarında istifadə edir; eyni zamanda insanın etdiyi yeni icadlar "güc"-ün təzahürlərinin subyektinə çevrilir. İnsanın qurduğu (dövlət kimi) qeyri-maddi varlıqlar da "güc" təbii olaraq təzahür edir.

### A. Təbiətdə güc

İngilis dilli mənbələrdə fizikada "güc"-ə iki obyektin birbaşa təması yaxud qarşılıqlı əlaqəsi zamanı *dartma və yaxud itmə* gücü kimi məna verilir.[3] Fizika baxımından təbiətdə "güc" yalnız təmas yaxud qarşılıqlı əlaqə zamanı təzahür edir.[4] Fizika "güc"-ü təmasdan yaranan güc və təmas olmadan qarşılıqlı əlaqədən yaranan güc olmaqla iki yerə ayrılır. Təmasdan yaranan "güc"-ə misal olaraq sürtünmə *gücü(qüvvəsi)*, zərbə *gücü(qüvvəsi)*, hava axınının müqavimət *gücü(qüvvəsi)* və sair göstərilir. Təmas olmadan qarşılıqlı əlaqədən yaranan "güc"-ə misal olaraq qravitasiya *gücü(qüvvəsi)*, elektrik *gücü (qüvvəsi)* yaxud maqnit *gücü(qüvvəsi)* göstərilir.[5]

Rus dilli dərsliklərdə "güc" – digər cisimlərin yaxud sahələrin mövcud cismə, bu cismin vəziyyətinin dəyişməsi ilə nəticələnən təsirinin ölçüsü olan vektoral böyüklük olaraq tərif edilir.[6]

### B. Dil problemləri

Fizika nə qədər dəqiq elm sahəsi olsa da, "güc"-ə müxtəlif dillərdə müxtəlif aspektlərdən yanaşılır.

[3] "The Meaning of Force, https://www.physicsclassroom.com/class/newtlaws/Lesson-2/The-Meaning-of-Force (son baxış 25 yanvar, 2021).
[4] Yenə orada.
[5] Yenə orada.
[6] Понятие силы (2015), http://ru.solverbook.com/spravochnik/mexanika/dinamika/ponyatie-sily/ (son baxış 25 yanvar, 2021).

Azərbaycan dilində fizika dərslikləri “*güc*”-ə - görülən işin bu işi görməyə sərf edilən zamana nisbəti kimi anlayış verir.[7] Azərbaycan dilindəki bu “*güc*”-ün ölçü vahidi Vatt-dır. İngilis və rus dillərində ölçü vahidi Vatt olan “güc”-ün başqa sözlə ifadə edilir - ingilislər “*power*” sözündən, ruslar isə “*мощность*” sözlərindən istifadə edirlər.

Burada fizikada “güc”-ü ifadə etmək üçün istifadə edilən iki ölçü vahidi “Vatt” və “Nyuton” Azərbaycanın fizika dilində iki fərqli kəlmə ilə ifadə edilir. Bu başqa dillərdə də belədir.

İngilis və rus dillərində Nyutonla ölçülən anlayış müvafiq olaraq “*force*” və “*сила*” adlanır. Azərbaycan dilində Nyutonla ölçülən nəsnəyə “*qüvvə*” olaraq anlayış verilir.

Azərbaycan dili fizikada başqa dillərin “*force*” yaxud “*сила*”, ya da *“kraft”* sözlərinin ifadə etdiyi hadisəni *“qüvvə”* sözü ilə ifadə etməsi, daxili hüquq və beynəlxalq hüquqda eyni sözlərlə (alman dili istisnadır) ifadə edilən hadisələr üçün isə *“güc”* terminindən istifadə etməsi qarışıqlıq yarada bilir. Çünki beynəlxalq hüquqda “güc tətbiqi” ifadə olaraq “*use of force*” yaxud “применения *силы*” sözləri ilə izah edilir.

Bunun belə olmasının səbəbləri və Azərbaycan dilində, Azərbaycan xalqının təfəkküründə hər hansı təsirinin olması maraqlıdır, lakin hazırki yazının mövzusundan kənardır. Belə fəlsəfi və sosioloji mövzuların müzakirəsi də məqaləni lüzumsuz şəkildə uzadardı.

Qısa olaraq qeyd edək ki, beynəlxalq və milli münasibətlər sistemində “güc”-ün ölçü vahidi Vatt yaxud Nyuton deyil, icra edilən hərəkətlərdir. Beynəxalq münasibətlər baxımından “güc” bir qabiliyyətdir, müəyyən hərəkətləri etmək bacarığıdır. Bu isə daha çox Nyutonla tənzimlənən “güc”-ü xatırladır- *birbaşa təması yaxud* ***qarşılıqlı əlaqə zamanı*** *ortaya çıxan güc* yaxud *digər cisimlərin yaxud sahələrin mövcud cismə, bu cismin* ***vəziyyətinin dəyişməsi ilə nəticələnən*** *təsirinin ölçüsü olan vektoral böyüklük*.

O da nəzərə alınmalıdır ki, beynəlxalq və milli hüquq baxımından “*güc*”-ün göstəricisi olaraq “*qüvvə*” sözündən istifadə edilir, məsələn siyasi və hərbi gücün göstəricisi olan “hərbi qüvvələr”, “polis qüvvələri” və sair. Türk dilində də “kara kuvvetleri” yaxud “hava kuvvetleri”, ya da “polis kuvvetleri” deyə xitab olunan qoşun hissələri gücün göstəricisidir. Bu ifadələri “güc” sözü ilə bildirəndə artıq daha çox “zorakılıq” xasiyyəti almış olur.

Maraqlıdır ki, Alman dilində “*Gewaltanwendung*” sözü “*güc tətbiqi*” kimi istifadə edilir. Alman dilində “gewalt” Azərbaycan dilinə “zorakılıq”, rus dilinə isə “насилия” sözləri ilə tərcümə edilir. Bu isə daha çox “*zor tətbiqi*” kimi tərcümə edilə bilər ki, zənnimizcə, “güc tətbiqi” hadisəsinin mahiyyətini də məhz bu ifadə daha dolğun ifadə edə bilər.

[7] “Güc — görülən işin bu işi görməyə sərf edilən zamana nisbətinə deyilir”, http://e-derslik.edu.az/books/218/units/unit-1/page85.xhtml (son baxış 25 yanvar, 2021).

Göründüyü kimi, "güc" özünü bir əşyada ifadə etməyən çoxmənalı qeyri-maddi məfhumdur. Ona toxunmaq, onu əşya kimi görmək olmur. Onu və onun nəticəsini (nəticələrini) başqalarının yaxud şəxsin öz hərəkətlərində (bəzən hərəkətsizliyində) izləmək, müşahidə etmək olur.

Bu yazının məqsədi də müəyyən hərəkətlərin edilməsi ilə zor (güc) tətbiq edib nəticəni hasil etmək barədədir. Əlbəttə, araşdırılması nəzərdə tutulan beynəlxalq hüquq baxımından bir ölkənin zor (güc) tətbiq etmək hüquqlarının sərhədləri və imkanlarıdır.

Təfərrüta keçmədən, ümumi olaraq, hüquqda "güc"-ün mövqeyinə qısa olaraq nəzər yetirilməsi yazının məqsədləri üçün vacib görünür.

## C. Hüquqda "güc" – hüququn gücü və gücün hüququ barədə

Hüquq və gücün nisbəti olduqca dərin araşdırma istəyən fəlsəfi və nəzəri mövzudur və təqdim olunan məqalə bunun üçün kifayət deyil. Bu baxımdan burada qeyd edilən nisbətə qısa nəzər yetiriləcək.

Sivil hüquq "güc"-ü, məqsədlərə çatmaq üçün faydalı olduğu təqdirdə deyil, yalnız icazə verildiyi təqdirdə tətbiq edir.[8] Başqa sözlə hüquq "güc"-ü özü tətbiq edir, yaxud "güc"-ün hüquqla müəyyən edilmiş məqsədlərə nail olunması üçün tətbiqinə sanksiya (icazə) verir. Amma hüquqda məqsəd "güc" və yaxud "güc tətbiq etmək" deyil. "Güc" və "güc tətbiq edilməsi" hüquq üçün vasitədir.

Sözsüz ki, "güc" üçün də hüquq vasitəyə çevrilə bilir. İtaliyada Mussolini hakimiyyəti, Almaniyada 3-cü reyx, Sovet ittifaqı kimi nümunələr göstərir ki, hüququn güc üçün vasitə olmasının tarixdə nəticələri olduqca acıdır və bu nəticələr dəfələrlə müşahidə edilmişdir.

***Hüququn gücü***: Hüququn gücü bundan əvvəlki hissələrdə qeyd edilən gücdən və ya kimisə istəyinin əksinə davranmağa məcbur etməkdən daha fərqlidir. Hüququn gücü ona "güc tətbiq etmədən" və "güc tətbiqi ilə hədələmədən" riayət edilməsi ilə ölçülür. Bu baxımdan, "hürr iradə" və "hürr iradə" əsasında davranmaq hüquqda olan gücü digər sosial münasibətlərdə tətbiq edilən gücdən fərqləndirir.[9]

Əlbəttə, nəzərə alınmalıdır ki, "hüquq" və "qanun" eyni anlayışlar deyildir. Bu baxımdan "hüququn gücü" hələ "qanunun gücü" demək deyil. Eləcə də "qanunun gücü" hələ "hüququn gücü" demək deyil. "Hüquq" ifadəsini "qanun"-da tapır, amma qanun "hüquq" məfhumunu tam olaraq ifadə etmir. "Qanun"-da ifadə edilməmiş "hüquq" hələ "hüquq" olmaqdan çıxmır. Hüququn içində həm də "ədalət" var. Hüquq ədalətli olmalıdır və ədaləti istəyir. Hüquq gücünü ədalətli olmasından alır. "Hürr iradə" əsasında insanların hüquqa əməl etmələri hüququn insanların (cəmiyyətin) ədalət

---

[8] Ronald Dworkin, Laws Empire, 93 (1986).

[9] Weber, Max, "*Basic Concepts in Sociology*", in: *Wirtschaft und* Gesellschaft, Volume 1, part one, chapter 1, 1962, p. 117, translated and introduced by H.P. Secher. Available at http://www.mdx.ac.uk/www/study/xWeb.htm (2007); Hans Kelsen, General Theory of State and Law, 181-192 (1946).

hissinə nə qədər doğru cavab vermiş olmasından irəli gəlir. Ədalətli hüquq çox güclü olur və güc hüququn özündən qaynaqlanır. Ədalətsiz hüquq isə "güc"-ü kənarda axtarır. "Ədalətli gücsüz hüquq"-da olur. Qanunlar hüququ ifadə etmədikdə və individual mənafeləri ifadə etdikdə, ədalətli olmurlar və ədalətli olmadıqları müddətcə insanların onlara riayət etməsi, ümumiyyətlə, onları qəbul etməsi çətin olur. Bəzən qanunlar ədalətli olurlar, amma mənafelər onların güclü olmasını və tətbiq edilməsini əngəlləyir. "Qanun" və "hüquq" anlayışları onların qarşılıqlılığı, bir-birlərindən asılılığı başqa məqalənin yaxud kitabın mövzusu olacaq dərəcədə genişdir. O baxımdan, bu bəhsi daha da genişləndirmirik.

Amma bəzi alimlər könüllü əməletməni psixoloji məcburetmə ilə əlaqələndirirlər. Məsələn Kelzen könüllü riayət etməni, azadlığın (*hürr iradənin*) deyil, psixoloji məcbur etmənin bir forması olaraq qiymətləndirirdi.[10] O hesab edirdi ki, cəmiyyətdə insanlar arasında hüquqa əməl olunması və onun tətbiq olunması[11] eynilə də pozuntulara qarşı cəza tətbiq olunması barədə razılıq mövcuddur. Hərçənd ki pozuntunun nə olması barədə daim fikir ayrılıqları mümkündür.

Kelzen qeyd edir ki, hüquq bəzi sosial münasibətlərdə olduğu kimi əməl etməyə görə mükafatlandırmır, amma əməl etməməyə görə cəzalandırır; bu hüququ fərqləndirən xüsusiyyətlərdən biridir.[12] Başqa ifadə ilə "cəza" hüququn "güc" mənbəyidir. "Cəza" ilə davranışa nail olunma hüququn ən çox sui-istifadə edilən xüsusiyyətidir. Hüquq tərəfindən məcbur edilməyə və pozuntu hallarında cəzalandırılmağa razılıq bütün hüquq sistemlərinə xasdır. Bu baxımdan bütün hüquq sistemlərinə *məcburi tədbirlərin qorxusu* altında arzu edilən davranışa nail olmaq xasdır.[13] Bu səbəbdən də Kelzenə görə, hüququn gücü hüququn güc vasitəsilə qorxutmasındadır.[14]

Qeyd edilənləri nəzərə alsaq, "güc" hüququn tərkibində mövcud olan abstrakt anlayış deyil. "Güc" maddiləşməsində dövlətin (polis, hərbi qüvvələr və digər orqanlar ilə) əhəmiyyətli rol oynadığı elementdir. Amma ədalətsiz hesab edilən hüququn yaxud tiraniya nəticəsində qəbul edilən hüququn qorxutması neqativdir. Bu hallarda "hüququn gücü" yox, məhz "gücün hüququ" təzahür edir və "*hüququn idarə etməsi*" (*rule of law*) deyil, "*hüquq vasitəsilə idarəetmə*" (*rule by law*) baş verir. Sual, əlbəttə, odur ki, hüquq özü özünü idarə edə bilərmi, yoxsa hüququn idarə edilməsi mütləq kənar (dövlət) gücün olmasını istəyir? Bu halda gücmü hüququndur, yoxsa hüquqmu gücün?

***Gücün hüququ***: Gücün hüququ gücün təzahür etdiyi və göstəricisi olan nəsnələrin (qüvvətlərin – hərbi qüvvələr, polis qüvvələri, və s.) hüquqdan

[10] Hans Kelsen, General Theory of State and Law, 181-192 (1946).
[11] Yenə orada, 181.
[12] Yenə orada.
[13] Yenə orada.
[14] Yenə orada.

istifadə etməsində yaxud güclünün (səlahiyyət sahibinin) hüquqdan özü üçün istifadə etməsində əksini tapır. Burada nəzər yetirilməsi vacib olan "güc"-ün səlahiyyət ilə əlaqəsi yaxud "güc" sahibi olmaq üçün "səlahiyyət"-li olmanın vacibliyidir.

Gücün hüququna həmişə mənfi məna yüklənməməlidir.

Qüvvələrin (səlahiyyətlilərin) hüququ olaraq, "gücün hüququ" normativ xarakterlidir. Gücün belə hüququ, qanunların, qaydaların, prosedurların belə qüvvələrin nələrə haqqının olması, öhdəliklərinin nələr olması, necə davranılamalı olmalarını ifadə edir. Bu mənada "gücün hüququ" dedikdə, qanunlarda əksini tapmış müddəalarla verilən davranış üsulu da nəzərdə tutulur.

Sosioloji və yaxud insan münasibətləri (ki, dövlətlər arasında olan münasibətlər də məhz insan münasibətləri çərçivəsində görülməlidir) baxımından: **"güc"** *başqasına təsir etməklə arzu edilən (belə təsir edənin, təsir ediləndən istədiyi) nəticənin hasil olmasıdırsa*, bu nəticənin hasil edilməsi üçün (təsir edənin) hüquqdan (sui)istifadəsi "gücün hüququ"-dur. Bu mənada "gücün hüququ" "güclünün (səlahiyyətlinin) hüququdur".

Bəzi hallarda, məhz güclünün (səlahiyyətlinin) hüquqdan sui-istifadə etməsi baş verir və hüquq, qanunlar, normalar güclünün obyektiv olmayan subyektiv məqsədlərinə çatma vasitəsinə çevrilir. Əlbəttə, güclünün (səlahiyyətlinin) "güc"-ü hardan əldə etməsi bir başqa sualdır. Güclü (səlahiyyətli) "güc"-ü hüquqdan daha çox resurslardan alır. Bu resurslar inzibati, siyasi, yaxud hərbi olur. Bəzən inzibati resursları olanlar, hərbi yaxud siyasi resursları olanların qarşısında gücsüz qalır. Bütün bu hallarda isə hüquq vasitə olaraq gücsüz qalır.

Bunun təzahürləri milli hüquqda olduğu kimi, beynəlxalq hüquqda da geniş yayılmışdır. Beynəlxalq hüquqda "güc tətbiq edilməsi" ilə bağlı qaydalar, onların pozulması, onlara əməl edilməməsi yaxud onlardan sui-istifadə də məhz "gücün hüququ" kontekstində dəyərləndirilməli olur. Bu mənada beynəlxalq hüquq ədalətli, amma gücsüz olan hüquq kimi görünür.

İstər milli, istərsə də beynəlxalq hüququn tətbiq edilməsi (*law enforcement*) və edilməməsi gücün hüquqdamı, yoxsa hüququn gücdəmi olmasını vəziyyətə görə müəyyən etmək imkanı verir. Hüququn kənar resurs cəlb edilmədən tətbiq edilə bilməsi onun gücünün və ağırlığının göstəricisidir. Hüququn tətbiq edilməsi üçün əlavə cəhdlərə və resurslara ehtiyac (polis, inzibati, məhkəmə) heç də həmişə onun gücsüzlüyünün göstəricisi deyil, xüsusən də əgər belə əlavə resurslar hüququn tətbiqini mümkün edirsə. Amma bəzən bu resurslara çıxış yaxud onlardan istifadə belə kömək etmirsə, yaxud bu resurslardan istifadə imkanları imtiyazlı yaxud seçicidirsə, burada "hüququn gücündən" deyil, məhz "gücün hüququndan" bəhs edilməlidir.

Beynəlxalq hüquqda "güc tətbiqi" və yaxud "güc tətbiqi ilə təhdid" ilə bağlı vəziyyət məhz bu haldadır. Hazırki yazı ilə Azərbaycanın güc tətbiq etmək hüququna yuxarıda qeyd edilən mənalarda baxılacaq. Bunun üçün ilk

olaraq beynəlxalq hüquqda güc tətbiqetmə hüququna, daha sonra isə Azərbaycanın bu hüququndan istifadəsinə nəzər salınacaq.

## II. Beynəlxalq hüquqda "güc" və "güc"-ün tətbiq edilməsi barədə

Adətən, beynəlxalq hüquqla bağlı ədəbiyyatda "güc" əsas etibarı ilə müharibə (güc tətbiqetmə) hüququnun bir amili olaraq nəzərdən keçirilir və bu çərçivədə öyrənilir.[15] "Güc"-ün var olub-olmaması deyil, var olan "güc"-ün qeyri-qanuni (beynəlxalq hüquqa zidd) tətbiqinin tənzimlənməsi, əlbəttə ki, beynəlxalq hüququn ən əhəmiyyətli sahələrindəndir. Bu xüsusda beynəlxalq hüquqda "güc" dedikdə yalnız hərbi güc və onun istifadəsi ilə kifayətlənmək düzgün olmazdı. İqtisadi güc və sanksiya rejimləri ilə ondan istifadə beynəlxalq münasibətlərdə təsir vasitəsi kimi və bəzi hallarda beynəlxalq hüququn tətbiq edilməsində mühüm rol oynayır.

Əlbəttə, dövlətlərin silahlanmasının məhdudlaşdırılması, kütləvi qırğın silahlarının, xüsusən nüvə silahlarının yayılmasının qarşısının alınması istiqamətində dövlətlərin ikitərəfli və çoxtərəfli formatda qəbul etdiyi sənədlər[16] beynəlxalq hüquqda həm də "güc"-ün yaradılmasının, "güc"-lənmək istiqamətində atılan addımların da tənzimlədiyini deməyə əsas verir. İnsan hüquqları, ətraf mühit hüququ, miqrasiya hüququ və bir çox digər hüquq sahələri ilə hərbi olmayan "güc"-dən istifadə də tənzimlənir.

Hazırki yazının məqsədi isə məhz Nizamnamənin 2(4)-cü maddəsinin çərçivəsində güc tətbiqinin araşdırılması olduğundan, burada Nizamnamənin 2(4)-cü maddəsindəki güc, yəni hərbi gücün tətbiq edilməsi nəzərdən keçiriləcəkdir.

Nizamnamənin ingilis dilində olan versiyası beynəlxalq hüquqda "güc"-ü ifadə etmək üçün "*force*" kəlməsindən istifadə edir. Amma leksikonda hərbi, siyasi, inzibati gücün ifadə edilməsi üçün həm də ingilis dilindəki "*power*" kəlməsindən də ifadə edilir – *political power*, *military power*, *administrative power*. İqtisadi, hərbi, inzibati və digər "güc"-lər hər hansı dövlətin beynəlxalq münasibətlərdə nüfuzunun göstəricisi və güclü olmasını şərtləndirən amillərdir. Beynəxalq münasibətlərdə nüfuz önəmlidir və "güc tətbiqi" imkanlarını artıran amillərdəndir. Amma dövlətlərin beynəlxalq nüfuzu,

[15] C. Gray, *International Law and the Use of force*, Oxford (2001); Brownlie, Ian, *International Law and the Use of Force by States*, 1963 Clarendon Press; T.M. Franck, *Recourse to Force*, Cambridge, (2002).
[16] Treaty on Non-Proliferation of Nuclear Weapons, 1968-ci ildə imza üçün açılmış və 1970-ci ildə qüvvəyə minmişdir, https://www.un.org/disarmament/wmd/nuclear/npt/text (son baxış 25 yanvar, 2021); Convention on the Prohibition of the Development, Production, Stockpiling and Use of Chemical Weapons and on Their Destruction, https://www.opcw.org/chemical-weapons-convention (son baxış 25 yanvar, 2021).

onun növləri və gücün tətbiq edilməsindəki rolu ayrıca araşdırma mövzusudur və hazırkı qısa haşiyə ilə kifayətlənəcəyik.

Burada başqa bir qısa haşiyə çıxıb *beynəlxalq hüququn gücünün* mənbəyinin nə olmasını, ya da nədə olması da soruşmaq olar. Beynəlxalq hüququn gücü ona əməl olunması ilə ölçülür, yoxsa o da "güc"-ə yaxud "güclü dövlətlərə" hüquq vermək üçündür? Bu mövzu da ayrıca araşdırma predmetidir və hazırki yazıda onu ayrıca təhlil etməyəcəyik.

Hazırki məqalənin məqsədləri üçün biz yalnız hərbi gücdən istifadəni, başqa deyimlə "güc tətbiqini" araşdırmaq niyyətində olduğumuzdan, digər sahələrdə "güc"-ün təsirlərini və digər sahələrin "güc"-ə təsirini müzakirə etməyəcəyik.

## A. Hərbi Gücün Tətbiq Edilməsi

Əsrlər boyu dövlətlər suveren olaraq bəsit səbəblərlə *öz mülahizələrinə əsasən* müharibəyə başlamış (güc tətbiq etmiş) və buna haqlarının olduğuna inanmışdır. Öz mülahizələrinə görə başlatdıqları müharibələrin ağır nəticələri dünya ictimaiyyətini "*jus ad bello*" (müharibəyə başlamaq hüququnu) yenidən şəkilləndirməyə vadar etmişdir. II Dünya Müharibəsi və onun ağır nəticələri dövlətlərin müharibəni "*öz mülahizələrinə əsasən*" başlamaq "hüququ"nu məhdudlaşdırmağa sövq etmişdir.

II Dünya Müharibəsindən sonra dövlətlərin razılaşdırdıqları BMT Nizamnaməsinin özəyi məhz beynəlxalq münasibətlərdə dövlətlərin *öz mülahizələrinə əsasən* "güc"-ün tətbiq edilməsini ciddi şəkildə tənzimləyərək məhdudlaşdırmaq, o cümlədən beynəlxalq münasibətlərdə güc tətbiqinə ayrı-ayrı dövlətlərin inhisarını aradan qaldırmaq olmuşdur. Nizamnamə ilə nəzəri olaraq gücün tətbiqi məhdudlaşdırıldığı kimi müəyyən mənada beynəlxalq sülh və təhlükəsizliyin təminatçısı kimi BMT Təhlükəsizlik Şurası ilə dövlətlər arasında "gücün tətbiqi" səlahiyyətinin bölüşdürülməsi də baş tutmuşdur. Beynəlxalq münasibətlərdə təcrübənin necəliyi fərqli ola bilər, amma necəliyindən asılı olmayaraq son 75 ildir ki, Beynəxalq Ədalət Məhkəməsi, dünya, alimlər, siyasətçilər, mütəxəssislər beynəlxalq hüququn gücün tətbiqinin BMT Nizamnaməsi ilə qadağan etdiyini qəbul edir.[17]

[17] O'Connell, Mary Ellen, "Enforcing the Prohibition on the Use of Force: The U.N.'s Response to Iraq's Invasion of Kuwait" (1991). Articles by Maurer Faculty. 2085. https://www.repository.law.indiana.edu/facpub/2085; *Military and Paramilitary Activities in and against Nicaragua* (Nicaragua vs. United States of America), [Jurisdiction and Admissibility] 1984 ICJ Rep 392; Declaration on Principles of International Law Concerning Friendly Relations and Cooperation Among States in Accordance with the Charter of the United Nations, UN General Assembly Resolution (UNGA) 2625 (XXV), 24 October 1970. Availble at: https://www.un.org/ruleoflaw/files/3dda1f104.pdf (son baxış 25 yanvar, 2021); C. Gray, *International Law and the Use of force*, Oxford (2001); Brownlie, Ian, *International Law and the Use of Force by States*, 1963 Clarendon Press; T.M. Franck, *Recourse to Force*, Cambridge, 2002; Malcolm N. Shaw, *International law*, Textbook, (8th ed. 2017).

## B. Beynəlxalq hüquqda "güc tətbiq edilməsi"nin məhdudlaşdırılması barədə

BMT Nizamnaməsi (bundan sonra "Nizamnamə") 2(4)-cü maddəsi ilə beynəlxalq münasibətlərdə "güc" və onun tətbiq edilməsi, eləcə də güc tətbiqi ilə hədələməyi aşağıdakı şəkildə tənzimləyir:

*"Bütün Üzvlər öz beynəlxalq münasibətlərində, hər hansı bir dövlətin ərazi bütövlüyünə və siyasi müstəqilliyinə qarşı və ya Birləşmiş Millətlər Təşkilatının məqsədləri ilə bir araya sığmayan hər hansı bir şəkildə güc tətbiqi ilə hədələməkdən və gücün tətbiqindən çəkinməlidirlər"*.[18]

BMT dövlətlərin güc tətbiq etməsini istəmir və ingilis dilində "*shall refrain*" (çəkinməlidir) ifadəsindən istifadə edir.

Beynəlxalq Ədalət Məhkəməsi öz qərarlarında bu müddəanın adət hüququ və *jus cogens* norması olmasını dəfələrlə bildirmişdir.[19]

1970-ci ildə "*güc tətbiq edilməsindən çəkinmə*" tələbi BMT Baş Assambleyasının "*Dostluq münasibətləri haqqında Beynəlxalq hüququn prinsipləri və dövlətlər arasında BMT Nizamnaməsinə uyğun əməkdaşlıq barədə Bəyannamə*"-də (bundan sonra "Bəyannamə") beynəlxalq hüququn prinsipi olaraq müəyyən edilmişdir.[20] Bəyannamədə "güc"-dən hədə yaxud faktiki istifadə isə beynəlxalq hüququn pozulması halı kimi təsbit edilmişdir.[21] Bəyannamə bir az da irəli gedərək təcavüzkar müharibənin sülh əleyhinə cinayət olduğunu və bu cinayətə görə isə beynəlxaq hüquqla məsuliyyətin müəyyən edildiyini qeyd edir.[22]

Bəyannamədə dövlətlərin bu istiqamətdə mövcud olan öhdəlikləri də müəyyən edilir. Hər bir dövlətin üzərinə digər dövlətin mövcud beynəlxalq sərhədlərini və yaxud beynəlxalq demarkasiya xətlərini güc tətbiq etməklə dəyişdirməmək öhdəliyi qoyulur.[23] Bəyannamədə həm də dövlətlər üçün insanları öz müqəddəratlarını təyin etmək hüququndan məhrum edəcək şəkildə güc tətbiq etməmək öhdəliyi müəyyən edilir.[24] Habelə bir dövlətin digərinin ərazisində iğtişaş yaratmaması və yaxud terror fəaliyyətini dəstəkləməməsi və belə tədbirlərin görülməməsi üçün öz ərazisində hər hansı

---

[18] BMT Nizamnaməsi, maddə 2(4), https://www.un.org/en/sections/un-charter/chapter-i/index.html (son baxış 25 yanvar, 2021).

[19] Constantinos Yiallourides, Markus Gehring, Jean Pierre Gauci, *The Use of Force in relations to Sovereignty Disputes over Land Territory*, British Institute of International and Comparative Law, 23, (2018).; *Military and Paramilitary Activities in and against Nicaragua* (Nicaragua vs. United States of America), [Jurisdiction and Admissibility] 1984 ICJ Rep 392 para 73, [Merits] 1986, ICJ Rep 14 para 186, 188, 190; *Legal Consequences of the Construction of a Wall in the Occupied Palestinian Territory* (Advisory Opinion), 2004, ICJ Rep 136, para 87.

[20] Declaration on Principles of International Law Concerning Friendly Relations and Cooperation Among States in Accordance with the Charter of the United Nations, UN General Assembly Resolution (UNGA) 2625 (XXV), (1970), https://www.un.org/ruleoflaw/files/3dda1f104.pdf (son baxış 25 yanvar, 2021).

[21] Yenə orada, 3.

[22] Yenə orada, 5.

[23] Yenə orada.

[24] Yenə orada.

fəaliyyətin təşkilatlandırılmaması tələbi də mövcuddur.[25] Son olaraq dövlətin ərazisinin hərbi işğal predmeti ola bilməməsi və ya başqa dövlət tərəfindən belə işğalın qanuni hesab edilməməli olduğu müəyyən edilir.[26]

Yuxarıda qeyd edilənlər göstərir ki, beynəlxalq münasibətlərində dövlətlərin güc tətbiq etmə hüququnun məhdudlaşdırılması son 75 ildə ciddi hüquqi əsası olan beynəlxalq hüquq prinsipi kimi möhkəmlənmişdir.

Bununla belə, dövlətlər üçün həyati əhəmiyyətə malik olan sual budur ki, BMT Nizamnaməsindəki güc tətbiqinin məhdudlaşdırılması güc tətbiq etmək hüququnun olmamasıdırmı? Güc tətbiq etmənin məhdudlaşdırılması bu hüququn olmaması üçün deyil, bu hüququn necə həyata keçirilməsini tənzimləmək üçündür. Bu baxımdan dövlətlərin güc tətbiq etmə hüququ beynəlxalq hüquqla məhdudlaşdırılsa da, yox dərəcəsinə endirilməmişdir.

Nizamnamə gücün tətbiqini qanuni və qeyri-qanuni olmaqla fərqləndirmiş və qanuni güc tətbiqini tanımışdır. Nizamnamədə müəyyən edilmiş istisnalar gücün qanuni tətbiqinin mümkün olduğu hallardır.

## C. Dövlətlərin güc tətbiq etmək hüququ

Baxmayaraq ki, xüsusən, II Dünya Müharibəsindən sonra BMT Nizamnaməsinin qəbulu ilə və yuxarıda qeyd edilən 2(4)-cü maddənin Nizamnaməyə əlavə edilməsilə dövlət münasibətlərində güc tətbiq edilməsinin qadağan edilməsi inancı formalaşmışdır, Nizamnamə və beynəlxalq münasibətlərdəki təcrübə dövlətlərin güc tətbiq etmək hüququnun qadağan edildiyini deyil, məhdudlaşdırıldığını göstərir. Tam və şərtsiz qadağa olmadığından dövlətlər güc tətbiq etmək hüququnu saxlamışdır. Xüsusən də, Nizamnamənin 51-ci maddəsi dövlətlərə öz mülahizələrinə uyğun olaraq müəyyən şərtlər çərçivəsində güc tətbiq etmək hüququnu verir.[27] Nizamnamənin 42-ci maddəsi ilə isə dövlətlərin kollektiv güc tətbiq etmək hüququ tanınır.[28]

Bir çox müəllif Nizamnamənin 2(4)-cü maddəsinin müharibə etməyi qanunsuz elan etdiyini yazır və bir az da irəli gedərək istisnasız bütün mübahisələrin, hətta işğal edilmiş ərazilərlə bağlı mübahisələrin də sülh yolu ilə tənzimləməli olduqlarını qeyd edir.[29] Amma eyni zamanda bu müəlliflər qəbul edirlər ki, bu sahədə "geniş yayılmış riyakarlıq"[30] mövcuddur.

Riyakarlıq ona görə baş verir ki, "güc"-ün (yaxud onun istənilən formada iqtisadi, hərbi, sosial, prixoloji təzahürünün) tam qadağan edilməsi mümkün deyil. Mümkün olan "güc"-ün hədlərinin müəyyən edilməsi, yəni

---

25 Yenə orada.
26 Yenə orada.
27 BMT Nizamnaməsi, Fəsil VII, https://www.un.org/en/sections/un-charter/chapter-vii/index.html (son baxış 25 yanvar, 2021).
28 Yenə orada.
29 Oscar Schachter, *The Right of States to Use Armed Force*, 82 Mich. L. Rev. 1620 (1984); Constantinos Yiallourides, Markus Gehring, Jean Pierre Gauci, The Use of Force in relations to Sovereignty Disputes over Land Territory, 22 (2018).
30 Schachter, yuxarıda istinad 20, 1620.

məhdudlaşdırılmasıdır. Dövlətlər münasibətlərində güc tətbiq etməyəcəklərinə əmin deyildir. BMT Nizamnaməsi qəbul edilərkən 2(4)-cü maddə və digər müddəalarda, eləcə də Təhlükəsizlik Şurası yaradılarkən və ona xüsusi səlahiyyətlər verilərkən güc tətbiq etmək hüququ (səlahiyyəti) olmayıb. O səbəbdən də dövlətlər silahlanmağı, ordu quruculuğunu, müdafiə məsələlərini heç bir vaxt nəzərdən qoymayıblar. İnsan təbiəti "güc"-dən imtinanı mümkün etmir və bəzi müəlliflər etiraf edirlər ki, "dövlətlər arasındakı mübahisələrdə gücü əvəz edə bilmək üçün çox az bir şey edilə bilər".[31]

Hərbi "güc tətbiqi" tam və qeyd şərtsiz qadağan edilmədiyinə (edilə bilinmədiyinə) və "güc"-ün məhdudlaşdırılması da müfəssəlliklərinə qədər təsvir edilmədiyinə (edilə bilinmədiyinə) görə, qəbul edildiyi müddətdən etibarən Nizamnamə və digər beynəlxalq hüquq normaları hərbi "güc tətbiqi" üçün bir əsaslandırma kimi istifadə edilmişdir. Bu baxımdan təcrübədə əksər hallarda (hətta güc tətbiqinin qanunsuz olduğu hallarda) güc tətbiqi üçün (ABŞ-ın öncülüyündə birinci və ikinci İraq əməliyyatı, ABŞ və müttəfiqlərinin Əfqanıstandakı əməliyyatları, İsrailin Livanda həyata keçirdiyi əməliyyatlar, Türkiyənin İraqın və Suriyanın şimalındakı əməliyyatları, Rusiyanın Gürcüstan ərazisində həyata keçirdiyi əməliyyatlar, və s.) Nizamnamə yaxud digər beynəlxalq hüquqi sənədlər əsas gətirilir. Beynəlxalq Ədalət Məhkəməsi bu xüsusu "güc tətbiqi" ilə bağlı dövlət təcrübəsinin beynəlxalq hüququ zəiflətməsi kimi deyil, əksinə dövlətlərin güc tətbiq etdikləri zaman BMT Nizamnaməsində nəzərdə tutulmuş istisnalara müraciət etmələrini (güc tətbiq etmələrini belə istisnalarla əsaslandırmaqlarını) beynəlxalq hüququn gücü və güclənməsi olaraq dəyərləndirmişdir.[32]

"Güc tətbiqi" barəsindəki beynəlxalq hüquq normaları o şəkildə işlənmiş və mövcud beynəlxalq orqanların işləmə mexanizmləri elə şəkillənmişdir ki, beynəlxalq hüquq hər hansı dövlətin güc tətbiq etmək qərarına elə də ciddi təsir edə bilmir. Təsir gücünə malik olan ayrı-ayrı dövlətlər, daha doğrusu, regional və yaxud qlobal mənada güclü dövlətlər olur. BMT Təhlükəsizlik Şurasının "güc tətbiqi" ilə bağlı Təhlükəsizlik Şurasının daimi üzvü olmayan (veto hüququ olmayan) dövlətlərin təcrübəsinə də təsiri mexanizmlərinin çalışıb-çalışmaması da daimi üzvlərin iradəsinin hansı istiqamətdə olması ilə müəyyən edilir. Amma istənilən halda mövcud beynəlxalq hüquq sistemi və onun inkişafı dövlətlər üçün legitimlik ehtiyacı yaradır.

Qeyd edilənlər göstərir ki, beynəlxalq hüquqda "güc tətbiqetmə"-nin məhdudlaşdırılması hər nə qədər universal qayda olsa da, dövlətlərin "güc tətbiq etmək" hüququ qalır və tam qadağan edilmir. "Güc tətbiqetmə"-ni hüquq kimi mümkün edən isə Nizamnamə ilə "güc tətbiq edilməsi"-nin məhdudlaşdırılmasına Nizamnamə ilə müəyyən edilmiş istisnalardır. Qəbul

[31] Yenə orada.
[32] *Military and Paramilitary Activities*, yuxarıda istinad 12, para. 186.

edilməlidir ki, Nizamnamə ilə müəyyən edilmiş istisnalar maddiləşmiş beynəlxalq hüquqda dövlətlərin "güc tətbiq etmək" hüququnu reallaşdırmaqları üçün əsas istinad yeridir. Əlbəttə, dövlət təcrübəsində bu istinadı aşan nümunələr çoxdur, amma bu yazının məqsədi onların hamısını araşdırmaq olmadığından hazırki qeydlə kifayətlənəcəyik.

## D. Özünümüdafiə və güc tətbiq etmək hüququ

Burada ehtiyatla yanaşılmalı olan sahə dövlətlərin *öz mülahizəsinə görə* güc tətbiq etməsi hallarıdır. Nizamnamə baxımından dövlətlərin öz mülahizəsinə görə, güc tətbiq edə bildiyi hal özünümüdafiədir. Nizamnamə özünümüdafiəni "Sülhə təhdid, sülhün pozulması və təcavüz aktlarına qarşı tədbirlər"-ə həsr edilmiş VII fəslə aid edir. Bu fəslin ilk maddəsi (maddə 39) pozulmuş sülhün bərpası üçün BMT Təhlükəsizlik Şurasına belə pozuntunun olub-olmamasını müəyyən etmək səlahiyyəti, eləcə də Nizamnamənin 41 və 42-ci maddələrinə görə hansı tədbirlərin görülüb görülməyəcəyinə dair tövsiyələr vermək yaxud belə tədbirlər barədə qərar qəbul etmək gücü verir.[33] Nizamnamənin 41-ci maddəsi öz qərarlarının tətbiqini təmin etmək üçün BMT Təhlükəsizlik Şurasına iqtisadi xarakterli sanksiyaların tətbiqini və əgər bu sanksiyalar səmərəli olmazsa artıq hava, dəniz yaxud quru vasitəsilə beynəlxalq sülh və təhlükəsizliyi bərpa etmək üçün tədbirlər görməyə səlahiyyətləndirir.[34] Birbaşa yazılmasa da, Nizamnamənin 42-ci maddəsi BMT Təhlükəsizlik Şurası tərəfindən güc tətbiq edilməsini nəzərdə tutur. Nizamnamənin 43-cü maddəsi bu mənada bütün dövlətlər üçün BMT Təhlükəsizlik Şurasını, o cümlədən hərbi qüvvələrlə təmin etmək öhdəliyi müəyyən edir və fəslin sonrakı maddələri ilə BMT Təhlükəsizlik Şurası tərəfindən güc tətbiq edildiyi zaman həyata keçirilən tədbirlərin müəyyən detalları qeyd edilir. Fəslin sonunda isə Nizamnamədə yazılan heç nəyin dövlətlərin təbii olan fərdi və kollektiv özünümüdafiə hüququnu məhdudlaşdırmadığının müəyyən edildiyi 51-ci maddə yer alır.

Məhz Nizamnamənin 51-ci maddəsi dövlətlərin hələ də öz mülahizəsinə əsasən gücü tətbiq edə bildiyi *istisnanı* müəyyən edir.

Bu baxımdan Nizamnamə özünümüdafiə hallarında dövlətlərə müəyyən sərbəstlik verir və müəyyən edir ki:

*"Bu Nizamnamədəki heç nə Birləşmiş Millətlərin üzv dövlətinə qarşı silahlı hücum baş verdiyində, Təhlükəsizlik Şurası beynəlxalq sülh və təhlükəsizliyi təmin etmək üçün tədbirlər görənə qədər, ayrılmaz olan kollektiv yaxud fərdi özünümüdafiə hüququnu məhdudlaşdırmamalıdır, Üzv dövlətlər tərəfindən özünümüdafiə hüququndan istifadə dərhal Təhlükəsizlik Şurasına bildirilməlidir və Təhlükəsizlik Şurasının bu Nizamnamə ilə istənilən vaxt beynəlxalq sülh və təhlükəsizliyi təmin*

[33] BMT Nizamnaməsi, Fəsil VII, https://www.un.org/en/sections/un-charter/chapter-vii/index.html (son baxış 25 yanvar, 2021).
[34] Yenə orada, maddələr 41-42.

*etmək üçün zəruri hesab etdiyi tədbirləri görməklə bağlı səlahiyyətlərinə və məsuliyyətnə təsir etməməlidir"*.[35]

Öz mülahizəsini istifadə edə bildiklərindən dövlətlər ən çox özünümüdafiə istisnasından istifadə edirlər. Bu səbəbdən də özünümüdafiənin nədən ibarət olması və hansı hallarda özünümüdafiə hüququna istinad edərək güc tətbiq edilə bilməsi daim müzakirə və hətta mübahisə mövzusu olmuşdur. Özünümüdafiə güc tətbiqinin *qadağa* deyil, *hüquq* kimi qalmasını mümkün edən istisnadır. Özünümüdafiənin geniş və ya dar mənada şərh edilməsindən asılı olaraq beynəlxalq hüquqda güc tətbiqinə fərqli yanaşmalar formalaşır. Azərbaycanın güc tətbiq etmə hüququna da mütəxəssislər, siyasətçilər, alimlər tərəfindən daim özünümüdafiə çərçivəsində baxılır. Azərbaycanla bağlı hissəyə növbəti paraqrafda qayıdacağıq, amma burada özünümüdafiənin Nizamnamədəki məhdudlaşdırmaya yeganə istisna olmadığını vurğulayaraq digər istisnalara da qısa nəzər yetirməyimiz lazımdır.

Güc tətbiq etmənin məhdudlaşdırılmasına edilən bu istisnadan başqa istisna *BMT Təhlükəsizlik Şurasının Nizamnamənin VII-ci fəslinə uyğun verdiyi səlahiyyət əsasında gücün tətbiq edilməsi*dir.[36]

Gücün tətbiq edilməsinin məhdudlaşdırılmasına olan digər istisnalar da vardır ki, bunlar Nizamnamədən kənar sənədlərdə və dövlətlərin təcrübəsində yer almışdır. Belə ki, BMT Baş Assambleyasının 1950-ci ildə qəbul edilmiş "Sülh naminə Birlik" Qətnaməsində *Baş Assambleyanın tövsiyəsi əsasında güc tətbiq etmək istisnası*na yer verilmişdir.[37] BMT Baş Assambleyası 1974-cü ildə "Təcavüzün anlayışına" dair qətnaməsində isə *öz müqəddəratını təyin etmə hüququndan zor gücünə məhrum edilmiş yaxud müstəmləkə altında olan yaxud xaricilərin istilasında olan insanların öz müqəddəratını və müstəqilliyə nail olma üçün mübarizə hüquq*unu tanıyır.[38]

Qeyd edilənlərdən başqa, təcrübədə dövlətlərin *digər dövlətin dəvəti əsasında onların ərazisində güc tətbiq etməsi*nə (hərbi əməliyyat keçirməsinə) rast gəlinir ki, bunun Nizamnamənin 2(4)-cü maddəsinin tələblərini pozmadığı bildirilir.[39]

Sadalanan istisnalar hərbi gücün qanuni və icazə verilən tətbiq edilməsinə aid edilir.

Həmçinin *humanitar fəlakətin qarşısının alınması ilə bağlı güc tətbiqi* son üç onillikdə bir neçə dəfə geniş miqyaslı güc tətbiq edilməsi üçün istinad edilən

---

[35] Yenə orada, maddə 51.
[36] Yenə orada.
[37] Uniting for Peace, § A, UN General Assembly Resolution (UNGA) 377A (v), 3 November 1950, https://www.un.org/en/sc/repertoire/otherdocs/GAres377A(v).pdf (son baxış 22 Dekabr 2020).
[38] Definition of Aggression, UN General Assembly Resolution (UNGA) 3314 (XXIX), 14 December 1974, https://crimeofaggression.info/documents/6/General_Assembly_%20Resolution_%203314.pdf (son baxış 22 Dekabr 2020).
[39] Rusiyanın Suriyada hərbi əməliyyatlarda iştirakı, yaxud başqa dövlətin ərazisində hərbi baza yerləşdirilməsinə dair müqavilələr bu qəbildən olan dövlətlərə misal göstərilə bilər.

səbəb olmuşdur, baxmayaraq ki, bu istinad olduqca ziddiyyətli qəbul edilmiş və müəlliflər tərəfindən birmənalı qarşılanmamışdır.[40]

Müəyyən *beynəlxalq ittifaqlar yaradaraq digər dövlətlərin ərazisində kütləvi qırğın silahlarının məhv edilməsi adı ilə aparılan hərbi müdaxilələrə* də rast gəlinir ki, (İraq, Liviya) bu hallar müəyyən dəstə dövlətin iştirakı olsa belə, legitim hesab edilməmişdir.[41]

Təcrübədə (Rusiyanın Gürcüstan ərazisinə 2008-ci ildə etdiyi hərbi müdaxilə, İsrailin 1976-cı ildə Entebbe (Uqanda) şəhərində keçirdiyi əməliyyat, ABŞ-ın 1965-ci ildə Dominikan Respublikası və 1983-cü ildə Qrenadaya hərbi müdaxiləsi)[42] bəzi dövlətlərin öz vətəndaşlarını qorumaq məqsədi yaxud adı ilə digər dövlətlərin ərazisində, belə dövlətlərin razılığı olmadan, apardığı əməliyyatlara və/və ya hərbi əməliyyatlara da rast gəlinir. Bəzi hallarda, vətəndaşları yaxud soydaşları müəyyən ərazidə kütləvi yaşayan dövlətlər bu ərazilərin ilhaqından da çəkinmir. Hətta belə ilhaqı öz daxili hüquq və beynəlxalq hüquqla əsaslandırmağa çalışırlar. (məsələn Krımın Rusiya tərəfindən ilhaqı, Qarabağın Ermənistan tərəfindən ilhaqına cəhd, və s.)

Bununla belə, beynəxalq hüquq baxımından Nizamnamədə əksini tapan istisnalar və yaxud qanuni güc tətbiqetmə hüququ özünümüdafiə və BMT Təhlükəsizlik Şurasının verdiyi icazə/göstəriş (sanksiya) əsasında gücün tətbiq edilməsidir.

Gücün tətbiqi ilə bağlı müzakirədə "güc tətbiq etməklə hədələmək" kənarda qalmamalıdır. Nəzərə alsaq ki, hər güc tətbiq etmə çox hallarda "hədələmək"lə başlayır. Bununla belə güc tətbiq ediləcəyi barədə "hədə" yaxud "təhdid" adətən o qədər diqqətdə olmur.

## E. "Güc" tətbiqi ilə təhdid etmək barədə

Hüquq ədəbiyyatında da əsas etibarı ilə "güc tətbiq edilməsi" müzakirə edildiyindən əksər hallarda "güc tətbiq etmə ilə hədələmək" o qədər də diqqət mərkəzində olmur. Hətta müəlliflər özləri bunu etiraf edirlər.[43]

Nizamnamə "güc tətbiqi" ilə eyni qaydada "güc tətbiq edilməsi ilə təhdid"-in də dövlətlərarası münasibətlərdə istifadəsini məhdudlaşdırır və

[40] Kreß, Claus, Zur Lage des völkerrechtlichen Gewaltverbots, Zeitschrift Außen Sicherheitspolit (2019) 12:453-476, https://www.springerprofessional.de/zur-lage-des-voelkerrechtlichen-gewaltverbots/17828512 (son baxış 22 Dekabr 2020); Schachter, yuxarıda istinad 20, 1620; Ian Hurd, *Is humanitarian intervention legal? The Rule of Law in an Incoherent World*, 25 Ethics & International Affairs 313 (2011).

[41] Sean D. Murphy, *Assessing the Legality of Invading Iraq*, 92 Geo. L. J. 173 (2004); Nigel D. White, *Libya and Lessons from Iraq: International Law and the Use of Force by the United Kingdom*, 42 Netherlands Yearbook of International Law (2011).

[42] Preethi Lolaksha Nagaveni, *Use of Military Force in Protection of Nationals Abroad*, Journal of Academy of Juridical Studies, 65-79, 2016, Lanchester University, https://eprints.lancs.ac.uk/view/year/2016.html (son baxış 25 yanvar, 2021).

[43] Schachter, yuxarıda istinad 20, 1625; Marco Roscini , *Threat of Armed Force and contemporary international law*, 54 Netherlands International Law Review, 229 (2007); Romana Sadurska, *Threats of Force*, 82 American Journal of International Law, 239 (1988).

dövlətlərdən belə təhdiddən çəkinməyi tələb edir.[44] Bu baxımdan "güc tətbiqi ilə təhdid etmək" "güc tətbiqi" ilə eyni şiddətə malik, amma fərqli anlayışdır.[45] Bəzi hallarda "güc tətbiqi ilə təhdid"-in ayrıca böyük əhəmiyyət kəsb etmədiyi qeyd edilir.[46] Bəzi hallarda isə "güc tətbiqi ilə təhdid"-ə qadağan predmeti kimi ayrıca müraciət edilmədiyi vurğulanır.[47] Güc tətbiqi ilə təhdid bundan istifadə edən dövlətin sonrakı addımları ilə qarışaraq bir növ itir və diqqətdən kənarda qalır. İstifadənin sıxlığı və müxtəlifliyi isə təhdidi sanki qadağa olmaqdan çıxarmışdır. Hətta Beynəlxalq Ədalət Məhkəməsinin baxdığı işlərdə belə tərəflərdən biri digər tərəfin beynəlxalq hüququ güc tətbiq etməklə təhdiddən istifadə edərək pozduğuna istinad etdiyi hallarda belə, Məhkəmə güc tətbiqinin özünü araşdırmış və təhdidlə bağlı pozuntunu araşdırılmasına köklənməmişdir.[48] Burada səbəb kimi təhdidin öz təbiətindən qaynaqlanan xüsusiyyətlər də mövcuddur. Çünki bəyan edilməsə (dilə gətirilməsə) belə, hər hansı dövlətin silahlanması, müdafiə xarakterli tədbirləri və bu kimi addımlarında da təhdid elementi daim mövcuddur. Yaxud digər dövlətə qarşı iqtisadi xarakterli addımlarda da təhdid amili var və bəzən bu amil silahlı güc tətbiq edilməsində olan təhdiddən daha çoxdur. Amma Nizamnamənin məqsədləri və prinsipləri baxımından çox açıq və aşkar aqressiyaya işarə edən hər hansı bəyan edilən yaxud bəyan edilməyən güc tətbiq ediləcəyinə dair təhdiddən istifadə Nizamnamənin 2(4)-cü maddəsinin məqsədləri baxımından qadağandır.

Nizamnamənin ingilis dilində olan versiyasında 2 (4) cü maddə bu hissədə "*threat to use force*" ibarəsindən istifadə edir. Söz olaraq, "*threat*" "təhlükə" mənasına gəlir və feil olaraq "*to threaten*" (*təhdid etmək*) kimi istifadə edilir. Nizamnamənin rus dilində olan versiyasında ibarə olaraq "*угроза силой*" sözlərindən istifadə edilir. Bu halda da "*угроза*" təhlükə mənasını verir, feil olaraq isə "*угрожать*" (təhdid etmək) sözü əsasdır. Bu baxımdan Nizamnamənin fransız dilindəki mətnində istifadə edilən "*a la menace... de la force*" ifadəsindəki "*menace*"-da isim olaraq "*təhlükə*", fel olaraq "*təhdid etmək*" mənalarına gəlir. Bu baxımdan 2(4)-cü maddənin məqsədləri üçün "*təhdid*" güc tətbiqi təhlükəsini yaratmaqdır. Təhdid-in nəticəsində güc tətbiqi olub-olmayacağını əvvəlcədən müəyyən etmək *preventiv* və/və ya *proaktiv* özünümüdafiə üçün istifadə edilən dəlillərdəndir.

"Təhdid" sözünün Azərbaycan dilindəki etimalogiyası baxımından "təhdid" ərəb mənşəli sözdür, həd müəyyən etmək, qorxutmaq, hədələmək mənalarını bildirir.

---

[44] BMT Nizamnaməsi, Fəsil VII, maddə 2(4), https://www.un.org/en/sections/un-charter/chapter-vii/index.html (son baxış 25 yanvar, 2021).
[45] Sadurska, yuxarıda istinad 33, 239.
[46] Yenə orada, 239-240.
[47] Schachter, yuxarıda istinad 20, 1625.
[48] Sadurska, yuxarıda istinad 33, 239-240.

Nizamnamənin 2(4)-cü maddəsinin qadağan etdiyi təhdid "güc"-ün tətbiq edilməsi ilə bağlı olan təhdiddir. Burada "güc" dedikdə hansı gücün nəzərdə tutulduğunu da anlamaq zəruridir. Yuxarıda bəzi müəlliflərin Nizamnamənin 2(4)-cü maddəsinin məqsədləri üçün "güc" dedikdə, hətta iqtisadi gücün bura daxil olduğunu bildirdiyini qeyd etdik.[49] Konsepsiya olaraq müəlliflər "təhdid"-ə hədəf olan şəxsin *status quo-nu* saxlaması, yaxud dəyişdirməsi üçün onda qorxu və narahatlıq formalaşdıran psixoloji hal yaradılması tədbiri kimi anlayış verirlər.[50] "Güc tətbiq edilməsi ilə hədələmək (təhdid etmək)" gizli yaxud aşkar hədəfdə olan auditoriya (və ya dövlət) üçün nəzərdə tutulan və onların müəyyən qayda yaxud tələbə riayət etməyəcəkləri təqdirdə onlara qarşı "güc" tətbiq ediləcəyinə dair ismarıcdır.[51] Bununla beynəlxalq münasibətlərdə bir tərəf digər tərəfin seçim imkanlarını məhdudlaşdıracaq həddə məcburetmə formasından istifadə etmiş olur.[52] "Güc tətbiq edilməsi təhdid"-i həm də başqa şəkildə əldə edilə bilinməyən məqsədlərə hərbi gücün tətbiq edilməsi hədəsi ilə döyüşmədən nail olunması cəhdi kimi də tərif edilir.[53] Amma təhdidlə əlaqədar "güc" terminini yalnız "hərbi güc"-lə ifadə etməyin yetərsizliyi ilə razıyıq. Çünki hərbi təzyiqin yerinə iqtisadi təzyiqin tətbiq edilməsi hər hansı davranışın təhlükəli olması yaxud təhdid kimi xarakterizə edilməsi baxımından o qədər də az müəyyənedici xarakter daşımır.[54] Beynəlxalq Hüquq Komissiyasının İnsanlığın Təhlükəsizliyinə və Sülhə qarşı Cinayətlər Məcəlləsinin layihəsində "təhdid"-ə "hər hansı dövlətin müəyyən tələblər yerinə yetirilməyəcəyi təqdirdə digər dövlət tərəfindən ona qarşı gücdən istifadə ediləcəyinə inandırmaqla bağlı tədbirlər"-i olaraq məna verilir.[55]

Bütün təhdidlərin tələblə əlaqədarlığını nəzərə alsaq,[56] "təhdid" ilə "tələb" qarışdırılmamalıdır. Hər "tələb" "təhdid" deyildir və hər "təhdid" də "tələb" deyildir, baxmayaraq ki, hər "təhdid" tələblərdən ibarətdir və "təhdid"in məqsədi "tələblərin" yerinə yetirilməsidir. Bununla belə, məsələ bu tələblərin yerinə yetirilmədiyi halda seçiləcək davranışın növüdür (güc tətbiq etmək, sanksiyalar, və s.). Tələbin növü öz növbəsində təhdidi hüquqa zidd yaxud hüquqa uyğun olmasını da müəyyən edir. Bu baxımdan hər təhdid qanuna zidd deyildir. Hüquq ədəbiyyatında "təhdid"-in mövcud olmasının "tələb"-in mövcud olması ilə əlaqəli olması heç də hamı tərəfindən qəbul edilmir.[57]

"Təhdid" "xəbərdarlıq"-la da səhv salınmamalıdır. Xəbərdarlıqda *"təhdid"-in həyata keçirilməsi iradəsi* mövcud olmur. Bu "təhdid" başqasından

[49] Yenə orada, 239; Roscini, yuxarıda istinad 33, 229-277.
[50] Sadurska, yuxarıda istinad 33, 239-240.
[51] Yenə orada, 240.
[52] Yenə orada.
[53] Roscini, yuxarıda istinad 33, 231.
[54] Sadurska, yuxarıda istinad 33, 245.
[55] ILC Yearbook, vol. 2, pt. two, 68 (1989); Roscini, yuxarıda istinad 33, 234.
[56] Roscini, yuxarıda istinad 33, 234.
[57] Yenə orada, 234-235.

qaynaqlandığı üçün ola bilər, yaxud da xəbərdarlıq edənin məqsədinin təhdid yox, məhz təhlükə barədə məlumat vermək olduğundan baş verə bilər.[58]

Bu baxımdan təhdidin qeyri-qanuni (Nizamnaməyə zidd) olması baxımından nə qədər məsuliyyət yaratdığı, əlbəttə, araşdırılmalıdır. Davranışın təhdid və/və ya təhlükə olması üçün ritorika kifayət edirmi? Yoxsa bu ritorika mütləq əməli fəaliyyətlə dəstəklənməlidir? Təhdidin hər hansı bir addımla dəstəklənməsinə ehtiyac yoxdur. Təhdidin özü artıq bir davranışdır.

Amma o da nəzərə alınmalıdır ki, hər "təhdid" beynəlxalq hüquqa zidd deyildir. Nizamnamənin və beynəlxalq hüququn pozulmasının qarşısının alınması və yaxud Nizamnamə və beynəlxalq hüquq pozulmuşdursa, onun bərpası üçün təhdiddən istifadə etmək qadağan deyildir. Bu baxımdan Küveytin işğalı zamanı İraqa ünvanlanmış qoşunlarını Küveyt ərazisindən çıxarmasına dair tələb və ona əməl edilməyəcəyi təqdirdə nəticələrinə qatlanılacağı da təhdid idi.

Nizamnamə baxımından "təhdid"-in hüquqa zidd olması üçün onun istinad etdiyi "gücün tətbiqi" də hüquqa zidd olmalıdır. Nizamnaməyə uyğun özünümüdafiə ilə bağlı edilən "təhdid" isə hüquqa zidd hesab edilə bilməz.[59]

## F. Ərazi münaqişələri və güc tətbiqi

Beynəlxalq hüquq ədəbiyyatında hakim fikir ərazi münaqişələri ilə bağlı "güc tətbiq edilməsi" hüququnu Nizamnamənin 2(4)-cü maddəsinin kontekstində dəyərləndirir.[60] Bu baxımdan güc tətbiqinə olan məhdudlaşdırmanın universal olduğu, ərazi mübahisəsi yaxud sərhədlərin delimitasiyası ilə bağlı olaraq gücün tətbiq edilməməli olduğu vurğulanır. Burada Nizamnamənin 2(3)–cü maddəsinə istinad edilir və münaqişələrin dinc vasitələrlə həllinin vacibliyinə diqqət çəkilir.[61] BMT Nizamnaməsinin 2(3)-cü maddəsi dövlətlərdən öz beynəlxalq mübahisələrini (münaqişələrini) sülh yolu ilə elə şəkildə həll edilməsini tələb edir ki, bu halda beyləxalq sülh, təhlükəsizlik və ədalət təhlükə altında qalmamış olsun. Formalaşmış və yaxud dondurulmuş ərazi mübahisələrinin *status quo* yaratdığı və status quonun pozulmasına istiqamətlənmiş güc tətbiqinin Nizamnamənin 2(4)-cü maddəsi ilə ziddiyət təşkil etdiyi qeyd edilir.[62]

### *1. Ərazi münaqişələri zamanı özünümüdafiə*

Ərazi mübahisələri zamanı özünümüdafiə hüququndan istifadənin mümkünlüyü mühüm suallardandır. Bəzi müəlliflər başqa dövlətin

---

[58] Yenə orada, 235.
[59] Yenə orada, 235-236.
[60] Yiallourides, Gehring, Gauci, yuxarıda istinad 20, 21-22.
[61] Yenə orada, 93-96.
[62] Yenə orada, 62-70.

qanunsuz nəzarətində olan mübahisəli ərazini geri qaytarmaq üçün özünümüdafiə hüququndan istifadəni mümkün hesab etməmiş və bunu münaqişələrin dinc yolla həlli öhdəliyinin predmeti hesab etmişdirlər.[63] Digər tərəfdən özünü müdafiənin əsas şərtinin *silahlı hücum* olması əsas gətirilərək belə silahlı hücuma özünümüdafiə olaraq cavabın da dərhal olması və yaxud çox uzun müddət keçmədən baş verməsinin zəruriliyi qeyd edilmişdir.[64]

Ərazi mübahisələri zamanı itirilmiş ərazilərin geri qaytarılması üçün güc tətbiqini Britaniya Beynəlxalq və Müqaisəli Hüquq İnstitutu iki halda mümkün hesab edir.[65] Birinci, BMT Təhlükəsizlik Şurasının müvafiq qərarı/göstərişi/icazəsi olduğu halda. Bu özünümüdafiə hüququnun gerçəkləşdirilməsi çərçivəsində deyil, BMT Nizamnaməsinin VII Fəslinə uyğun sülh və təhlükəsizliyin bərpa edilməsi üçün güc tətbiqinə göstəriş/sanksiya verilməsi formasında baş verir. Bunun ən parlaq nümunəsi isə BMT Təhlükəsizlik Şurasının 678 saylı qərarı ilə Təhlükəsizlik Şurasının İraqın Küveytdən çıxarılması üçün qəbul edilmiş 660 saylı qərarının icrası ilə bağlı *"bütün lazımı tədbirləri"* görməsi səlahiyyətinin BMT-nin üzv dövlətlərinə verməsidir.[66]

İkinci nümunə kimi isə dövlətin silahlı hücuma məruz qaldığı halda Nizamnamənin 51-ci maddəsinə əsasən güc tətbiq etməsidir ki, institut bu hissədə özünümüdafiənin dərhal olmasını vacib hesab edir.[67] Başqa sözlə, hücuma ağlabatan vaxtda cavab verməyən dövlətin uzun müddət keçdikdən sonra Nizamnamənin 51-ci maddəsini aktivləşdirməsini institut mümkün hesab etmir.[68] Bununla belə, gecikmənin əsaslı səbəblərinin olması (hücumun davam etdiyi şəraitdə dövlətin məsləhətləşmələr aparması, planlaşdırma, məsələnin ilk əvvəl diplomatik yollarla həllinə çalışılması amma bundan silahlı hücum edən dövlət tərəfindən qəti şəkildə imtina edilməsi və s.) özünümüdafiə hüqunun müəyyən vaxt keçdikdən sonra da aktivləşdirilməsini mümkün edir.[69] İnstitut hesab edir ki, Nizamnamənin 51-ci maddəsi əsasında ağlabatan müddətdə həyata keçirilməyən özünümüdafiə hüququ ərazi münaqişəsində yeni yaranmış *status quo* ilə qarşılaşmaq deməkdir və bu status quo sonradan güc tətbiqi yolu ilə dəyişdirilə bilməz.[70] Amma institut eyni zamanda rəsmi olaraq tamamlanmamış müharibədə *jus ad bellum* üçün xüsusi əsaslandırmanın olmasına ehtiyacın olmaması fikrinə də yer verir, baxmayaraq ki, bu fikirlə razılaşmır.[71] İraqda 2001-ci ildə başlamış ikinci müharibədə 10 ildən çox müddət keçməsinə baxmayaraq,

---

[63] AC Arend, *The Obligation to Pursue Peaceful Settlement of International Disputes During Hostilities*, 24 Virginia Journal of International Law 97, 102 (1984).
[64] Yoram Dinstein, War, Aggression and Self-Defence, 165-167 (2001).
[65] Yiallourides, Gehring, Gauci, yuxarıda istinad 20, 79-80.
[66] Yenə orada, 79.
[67] Yenə orada, § 156.
[68] Yenə orada.
[69] Yenə orada.
[70] Yenə orada.
[71] Yenə orada, § 157.

koalisiya dövlətlərinin BMT Təhlükəsizlik Şurasının əvvəlki qərarını əməliyyatların yenidən başlaması üçün əsas olaraq götürmələri (baxmayaraq ki, burada ərazi münaqişəsi yox idi sadəcə müəyyən fasilə var idi), eləcə də dünyadakı digər ərazi münaqişələrində əsas olaraq Nizamnamənin 51-ci maddəsinə istinad edilməsi onu göstərir ki, dövlətlər davam edən yaxud dondurulmuş münaqişələrdə hərbi əməliyyatları başlamaq üçün institutun qeyd etdiyi iki yoldan birinə üstünlük verirlər. Bəzi hallarda, əlbəttə ki, bu iki yol deyil, sadəcə hərbi şəraitin davam etdiyi əsas gətirilərək əməliyyatlara başlanması hallarına da rast gəlinir.

Əgər Nizamnəmanin məqsədləri və müddəaları nöqteyi nəzərindən *status quo* yaranmış münaqişələrdə ərazilərin geri alınması (işğaldan azad edilməsi) üçün hüquqi əsasın nə olması məsələsinə baxsaq, burada İnstitutun mövqeyi ilə razılaşmağın düzgün olduğunu hesab edirik. İşğala məruz qalmış dövlətlər ərazilərini geri qaytarmaq üçün BMT Təhlükəsizlik Şurasının qərarlarını yaxud Nizamnamənin 51-ci maddəsini əsas almalıdırlar. Nizamnamənin 51-ci maddəsini əsas almaq üçün isə yeni silahlı hücum olması şərti vardır. Əlbəttə, dövlətlər siyasi, hərbi və iqtisadi gücü baxımından münaqişənin bitmədiyini əsas gətirib, nə BMT Təhlükəsizlik Şurasının qərarını, (yeni qərarını) nə də Nizamnamənin 51-ci maddəsini əsas götürməyə və birbaşa hərbi əməliyyatlara da başlaya bilər. Bunun üçün dövlət beynəlxalq adət hüququ əsasında önləyici (preventive) və yaxud qabaqlayıcı (preemptive) özünümüdafiəyə istinad edə bilər.

## III. Azərbaycanın güc tətbiq etmək hüququ

Əvvəldə də qeyd olunduğu kimi, Azərbaycanın bütün digər suveren dövlətlər kimi məhdud çərçivədə də olsa, güc tətbiq etmək hüququ vardır. Bu hüquq müdafiə xarakterli güc tətbiq etməni özündə ehtiva etdiyi kimi hücum xarakterli güc tətbiq etməni də nəzərdə tutur. Hücum xarakterli güc tətbiq etmə təcavüz demək deyil və beynəlxalq hüquq müdafiə üçün hücum xarakterli güc tətbiq etməni qəbul edir.

Ümumən, bura qədər olan yazıdan aydın olduğu kimi, beynəlxalq güc tətbiq etmə hüququnda dövlətlərin təcrübəsi ilə beynəlxalq sənədlərin tələbləri heç də həmişə üst-üstə düşmür. Belə ki, dünya dövlətlərinin güc tətbiq etmə təcrübəsi hər nə qədər beynəlxalq hüququ əsas gətirərək həyata keçirilsə də, bu təcrübə heç də beynəlxalq hüquqa uyğun aparılmır. Müəlliflərin mütləq əksəriyyəti razılaşırlar ki, İraqın Küveyti istilası zamanı BMT Təhlükəsizlik Şurasında dövlətlərin nümayiş etdirdikləri mövqe kollektiv güc tətbiq edilməsi üçün nadir nümunədir. Bəzi müəlliflər BMT Təhlükəsizlik Şurasında dövlətlərin nümayiş etdirdikləri mövqeyin öz növündə yeganə olduğu qənətinə gəlmişdirlər, çünki İraqa qarşı nümayiş etdirilən mövqe ondan sonrakı hallarda, xüsusən kollektiv müdafiə kontekstində (güc tətbiq edilməsi) təkrarlanmamışdır.

Yazının bu hissəsində qeyd edilməlidir ki, Azərbaycanın güc tətbiq etmə hüququ ümumi olduğu qədər, həm də məhz istila (işğal) kontekstində dəyərləndirilməlidir.

## A. Azərbaycanın Nizamnaməyə əsaslanan güc tətbiqetmə hüququ

Yazının bundan əvvəlki hissəsində qeyd edildiyi kimi, Azərbaycanın Nizamnamənin 2(4) və 51-ci, eləcə də 41 və 42 maddələri əsasında güc tətbiq etmək hüququ vardır. Nizamnamənin 2(4) cü maddəsi hər nə qədər güc tətbiq edilməsini məhdudlaşdıran norma olsa da, bu maddə *dövlətlərarası münasibətlərdə* güc tətbiqindən çəkinməni *dövlətin ərazi bütövlüyünə və siyasi müstəqilliyinə qarşı və ya Birləşmiş Millətlər Təşkilatının məqsədləri ilə bir araya sığmadığı* hallarda tələb edir. Azərbaycan hər hansı digər dövlətin ərazi bütövlüyünə qəsd etmirsə və siyasi müstəqilliyinə qarşı hərbi tədbir almırsa, yaxud həyata keçirdiyi güc tətbiqi BMT-nin məqsədlərinə uyğundursa, dövlətlər arası münasibətlərdə Azərbaycanın bütün digər dünya dövlətləri kimi güc tətbiq etmək hüququ vardır. BMT-nin məqsədlərinə gəldikdə bu məqsədlər Nizamnamənin 1-ci maddəsində müəyyən edilmişdir və aşağıdakılardan ibarətdir:

1. "Beynəlxalq sülhü və təhlükəsizliyi qoruyub saxlamaq və bu məqsədlə sülhə təhlükənin qarşısını almaq və aradan qaldırmaq üçün və təcavüz aktlarını və digər sülhün pozulması hallarını yatırtmaq üçün səmərəli kollektiv tədbirlər görmək və sülhün pozulmasına gətirib çıxara bilən beynəlxalq mübahisə və situasiyaların dinc vasitələrlə, ədalət və beynəlxalq hüquq prinsiplərinə uyğun olaraq nizamlanmasına və ya həll olunmasına müvəffəq olmaq;
2. Millətlər arasında, xalqların hüquq bərabərliyi və öz müqəddəratını təyin etməsi prinsipinə hörmət əsasında dostluq münasibətləri inkişaf etdirmək, universal sülhün möhkəmləndirilməsi üçün digər müvafiq tədbirlər görmək;
3. İqtisadi, sosial, mədəni və ya humanitar xarakterli beynəlxalq problemlərin həll edilməsində və irqinə, cinsinə, dilinə və ya dini mənsubiyyətinə fərq qoyulmadan bütün insanların əsas hüquq və azadlıqlarına hörmətin dəstəklənməsində və həvəsləndirilməsində beynəlxalq əməkdaşlığa nail olmaq;
4. Bu ümumi məqsədlərə çatmaq üçün millətlərin hərəkətlərini uzlaşdırmaq üçün mərkəz rolunu oynamaq".

Azərbaycan bu məqsədlərə xidmət etdiyi və yaxud onlara zidd olmadığı müddətcə güc tətbiq etmək hüququnu özündə saxlayır. Bu isə əsas etibarı ilə müdafiə xarakterli güc tətbiq edilməsi hüququ deməkdir. Başqa sözlə, Azərbaycanın ərazi bütövlüyü, sərhədlərinin toxunulmazlığı və siyasi müstəqilliyinə qarşı hər hansı güc tətbiq edilməsi yaxud Azərbaycana qarşı BMT-nin məqsədlərinə zidd olaraq güc tətbiq edilməsi Azərbaycanın da

özünümüdafiə olaraq güc tətbiq etmək hüququndan istifadəsinə imkan yaradır.

## B. Azərbaycanın müdafiə xarakterli güc tətbiq etmə hüququ/işğala qarşı güc tətbiq edilməsi

Nizamnamənin 51-ci maddəsi ilə Azərbaycanın dövlət olaraq təbii (inherent right) özünümüdafiə hüququ vardır. Özünümüdafiənin və maddənin təfərrüatı ilə bu hissədə şərhə ehtiyac yoxdur. Amma maddəyə istinad hallarında ortaya çıxan bütün suallar, o cümlədən qabaqlayıcı özünümüdafiə (*preemptive self-defence*) və/və ya önləyici özünümüdafiə (*preventive self-defence*) tədbirləri istifadə imkanı Azərbaycanda da vardır.

Azərbaycanın qabaqlayıcı və yaxud təhlükəni sovuşdurma xarakterli özünümüdafiə hüququnun olmasına yanaşma bu məsələlərə mövcud olan ikili yanaşma kimidir. Özünümüdafiəni daha geniş şərh edən müəlliflər önləyici və qabaqlayıcı özünümüdafiəni qəbul edirlər, daha konservativ şərh üsuluna üstünlük verən müəlliflər isə belə özünümüdafiəni Nizamnaməyə zidd hesab edirlər. [72]

Azərbaycan dövlət olaraq beynəlxalq güc tətbiqi hüququnun daha çox konservativ şərhindən istifadə edir. Ölkənin Qarabağ münaqişəsindəki güc tətbiqi zamanı əsaslandırması da bunun bariz nümunəsidir.

Özünümüdafiə hüququnun yaxud Nizamnamənin 51-ci maddəsinin konservativ (dar) şərhi nədən ibarətdir? Bu əsas etibarı ilə maddədə olan iki ifadənin şərhi ilə əlaqədar olan məsələdir – "*ayrılmaz (təbii) hüquq*" (inherent right) və "*Birləşmiş Millətlərin üzv dövlətinə qarşı silahlı hücum baş verdiyində*". Bir çox şərhçilər özünümüdafiədə hərbi tədbirlərin görülməsi üçün mütləq silahlı hücum faktının olmasının zəruri olduğunu qeyd edirlər.[73] Eyni zamanda müəlliflər özünü müdafiə hüququnun dövlətlərin ayrılmaz (təbii) hüququ olması etibarı ilə güc tətbiqinin dövlətə qarşı silahlı hücum olmadığı hallarda da mümkün olduğunu bildirirlər.[74] Bununla belə, Nizamnamənin 51-ci maddəsi birmənalıdır, özünümüdafiə zamanı güc tətbiq edilməsi üçün dövlətin silahlı hücuma məruz qalması şərti mövcuddur. Silahlı hücum olmadan özünü müdafiə məqsədilə güc tətbiqi Nizamnamənin 51-ci maddəsinin tələblərini yerinə yetirməmiş olur. Bununla belə, hazırki müəllifin əvvəlki yazısında[75] qeyd etdiyi fikri genişləndirərək, qeyd

[72] AC Arend, *The Obligation to Pursue Peaceful Settlement of International Disputes During Hostilities*, 24 Virginia Journal of International Law 97, 102 (1984); Yoram Dinstein, War, Aggression and Self-Defence, 165-167 (2001); Kreß, Claus, Zur Lage des völkerrechtlichen Gewaltverbots, Zeitschrift Außen Sicherheitspolit (2019) 12:453-476, https://www.springerprofessional.de/zur-lage-des-voelkerrechtlichen-gewaltverbots/17828512 (son baxış 22 Dekabr 2020); Oscar Schachter, *The Right of States to Use Armed Force*, 82 Mich. L. Rev. 1620 (1984); Constantinos Yiallourides, Markus Gehring, Jean Pierre Gauci, The Use of Force in relations to Sovereignty Disputes over Land Territory, 22 (2018).
[73] Yiallourides, Gehring, Gauci, yenə orada, 20-95.
[74] Dinstein, yuxarıda istinad 53, 165-167.
[75] Shukurov Shahid, State responsibility in cases of self-defence against none-state actors: a pillar in establishing the international rule of law, WVB, (2011).

edilməlidir ki, təhlükənin olduqca açıq-aydın olması hallarında güc tətbiqi labüd ola bilər, çünki belə hallarda hərbi hədəflərə qarşı gücün vaxtında tətbiq edilməməsi təhlükəyə məruz qalan dövləti təcavüz vəziyyətində ağır nəticələrlə, o cümlədən mülki şəxslər və infrastrukturla bağlı fəlakətlə üzbəüz qoya bilər.[76] Doğrudur ki, belə özünümüdafiə Nizamnamənin 51-ci maddəsinin müəyyən etdiyi "*silahlı hücum*" şərtinə ziddir.

Azərbaycan ölkə olaraq hərbi təcavüzə və yaxud silahlı hücuma məruz qaldığı hallarda özünümüdafiə hüququndan birbaşa istifadə edə bilər. Amma silahlı hücum olmadıqda belə, müdafiə üçün hərbi tədbirlərə müraciət edə bilər. Burada, əlbəttə, "*hərbi*" dedikdə nəyin nəzərdə tutulmasının aydınlaşdırılması vacibdir. Nəzərə alsaq ki, Azərbaycanda münaqişə zonası xaricində olan ərazilərdə sərhədlərin qorunmasını Dövlət Sərhəd Xidməti təşkil edir, Xidmətin gördüyü tədbirlərin nəzərdə tutulan "hərbi tədbir" olub-olmaması sualı yaranır. Önləyici yaxud qabaqlayıcı özünümüdafiə tədbirləri nizami ordu tərəfindən real təhlükənin aradan qaldırılması məqsədi daşıyan tədbirlərdir və bu baxımdan nizami ordudan qeyri-qüvvələrin belə tədbirləri görməsi, adətən, baş vermir. Bununla belə, oxşar tədbirlərin, məsələn sərhəd qoşunları yaxud sərhəd xidməti tərəfindən görülməsi mümkünlüyü də istisna deyil.

## C. Qarabağ münaqişəsi və Azərbaycanın güc tətbiq etmək hüququ

Azərbaycanın işğal altında olmuş Qarabağ (dağlıq və düzən hissəsi) bölgəsini işğaldan azad etmək hüququ daim mövcud olmuşdur. Azərbaycan bu hüququndan 2020-ci ilin payızında istifadə etmiş və buna şərait 2020-ci il ərzində işğalçının sistematik olaraq davam etdirdiyi silahlı hücumlar olmuşdur.

### *1. Azərbaycanın ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığı*

Azərbaycanın ərazisi və onun bütövlüyü, eləcə də Azərbaycanın sərhədlərinin toxunulmazlığı olduqca geniş mövzudur və ayrıca yazının predmetidir. Hazırki yazının predmeti güc tətbiq etmək hüququdur, o baxımdan Azərbaycanın güc tətbiq etmək hüququnu araşdırmaq məqsədilə Qarabağ münaqişəsi ilə bağlı BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi qətnamələrin kontekstində Azərbaycanın ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı mövzusu qısa təhlil ediləcəkdir. Qeyd edilməlidir ki, Qarabağın Azərbaycan Respublikasının ərazisi olması BMT Təhlükəsizlik Şurasının Qarabağ münaqişəsi ilə əlaqədar qəbul edilmiş 822, 853, 874 və 884 saylı qətnamələri ilə təsdiqini tapmışdır.

Belə ki, 822 saylı qətnamə ilə Təhlükəsizlik Şurası "*regionun bütün ölkələrinin suverenliyi və ərazi bütövlüyünə hörmətini yenidən təsdiq*" etmişdir.[77]

[76] Yenə orada.
[77] Resolution 822 (1993), S/Res/822 (1993), 30 april 1993, Preamble para.7.

Bunun ardınca gələn növbəti paraqrafda isə Təhlükəsizlik Şurası "*beynəlxaq sərhədlərin toxunulmazlığı və ərazilərin əldə edilməsi üçün güc tətbiqinin yolverilməzliyini*" bir daha təsdiq etmişdir.[78] Bu qətnamənin Azərbaycanın ərazi bütövlüyü baxımından ən mühüm hissəsi Kəlbəcər və *Azərbaycanın digər işğal edilmiş ərazilərindən* (Qətnamə "area" sözündən istifadə edir ki, bunu "digər hissələrindən" kimi də tərcümə etmək mümkündür) bütün işğalçı qüvvələrin çıxarılmasının qeyd edildiyi 1-ci bənddir. Nəzərə alınmalıdır ki, Kəlbəcər rayonu 2 aprel 1993-cü ildə işğal edilmiş ikinci rayon idi. Bu işğala qədər keçmiş DQMV inzibati ərazi vahidindən kənarda işğal edilmiş ilk rayon Laçın (18 may 1992) idi. Digər ərazilər isə yalnız keçmiş DQMV-nin ərazində idi. Bu baxımdan "*Azərbaycanın digər işğal edilmiş əraziləri*" həm də keçmiş DQMV-nin inzibati ərazində olan şəhər və rayonları əhatə edir. Başqa sözlə Qətnamədə Təhlükəsizlik Şurası keçmiş DQMV-yə daxil olan əraziləri işğala məruz qalmış Azərbaycanın ərazi kimi tanımış və Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsini də bu ərazilərdən işğalçı qüvvələrin çıxması ilə şərtləndiyini göstərmişdir.

853 saylı Qətnaməsində isə Təhlükəsizlik Şurası ölkələrin suverenliyinin və ərazi bütövlüyünə hörmətin təsdiq edildiyi hissədə dəqiqləşdirmə aparmış və müvafiq paraqrafı ümumi deyil, *Azərbaycan Respublikasının suverenlik və ərazi bütövlüyünə hörməti* xüsusi qeyd etməklə yazmışdır.[79] Sərhədlərin toxunulmazlığı prinsipi ilə bağlı paraqrafı isə olduğu kimi saxlamışdır. Bununla yanaşı 822 saylı Qətnamədən fərqli olaraq Təhlükəsizlik Şurası mövqeyini sərtləşdirmiş, Ağdam rayonu və *son zamanlar* (*recently*) *işğal edilmiş Azərbaycan Respublikasının bütün digər ərazilərinin ələ keçirilməsi* pisləmişdir.[80] Təhlükəsizlik Şurası eyni zamanda Ağdam rayonu və *son zamanlar* (*recently*) *işğal edilmiş Azərbaycan Respublikasının bütün digər ərazilərindən* işğala cəlb edilmiş bütün qüvvələrin çəxarılmasını tələb etmişdir. Bu Qətnamənin mətninin dili də Təhlükəsizlik Şurasının Qarabağın bütün hissələrinin Azərbaycan ərazisi olması və Azərbaycanın ərazi bütövlüyünün məhz bu çərçivədə qiymətləndirilməli olduğunu təsdiq edir.

874 saylı Qətnamədə Təhlükəsizlik Şurası mövqeyini daha da dəqiqləşdirmiş və bəzi hissələrdə sərtləşdirmişdir. Təhlükəsizlik Şurası bundan əvvəl məsələ ilə əlaqədar qəbul etdiyi qətnamələrdə (822 və 853 saylı Qətnamələr) əgər yalnız Azərbaycan Respublikası və Ermənistan Respublikaları arasında münasibətlərin gərginləşməsindən/pisləşməsindən narahatlığını bildirirdisə,[81] 874 saylı Qətnamədə "*Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionunda və onun ətrafında* münaqişənin, eləcə də Ermənistan Respublikası və Azərbaycan Respublikası arasında gərginliyin davam

[78] Yenə orada, para. 8
[79] SC Resolution 853, S/RES/853 (1993) 29 July 1993, Preamble para.8.
[80] Yenə orada, Preambula para. 9.
[81] Yuxarıda istinad 64, Preambula para. 3; yuxarıda istinad 66 Preambula para. 3.

etməsindən ciddi narahatlığını" bildirmişdir[82]. Bu Qətnamədə Dağlıq Qarabağ regionunun (bölgəsinin) və onun ətrafındakı ərazilərin Azərbaycan Respublikasına aidiyyatı ilk dəfə birbaşa və açıq şəkildə qeyd edilmişdir. Artıq bu kontekstdə Qətnamənin giriş hissəsinin 5 və 6-cı paraqrafları daha münaqişə çərçivəsində Azərbaycanın ərazi bütövlüyünun daha dəqiq təsvirini yaratmışdır. Qətnamənmin giriş hissəsinin 5-ci paraqrafında Təhlükəsizlik Şurası 853 saylı Qətnamədəki kimi Azərbaycan Respublikasının ərazi bütövlüyü və suverenliyinə hörmətini bir daha bildirmiş, 6-cı paraqrafda isə beynəlxalq sərhədlərin toxunulmazlığını bir daha təkrar edərək ərazilərin əldə edilməsi üçün güc tətbiqinin yolverilməzliyini bildirmişdir.[83] Münaqişə zəmnində BMT müstəvisində Azərbaycanın ərazi bütövlüyünün 874 saylı Qətnamə ilə tam və dəqiq təsvirini almışdır. Qətnamə 14 oktyabr 1993-cü ildə qəbul edilmişdir.

Məsələ ilə bağlı BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi son 884 saylı Qətnamə, 874 saylı Qətnamənin Dağlıq Qarabağ bölgəsinin Azərbaycana aidiyyatı ilə bağlı hissəsini eynilə təkrar edir. Eləcə də 884 saylı Qətnamədə Azərbaycanın suverenliyi və ərazi bütövlüyünə hörmətlə bağlı mövqe, sərhədlərin toxunulmazlığı və ərazilərin güc yolu ilə əldə edilməsinin qəbuledilməzliyi eynilə təkrar edilmişdir.

1994-cü il 5 may tarixində imzalanmış Bişkek Protokolu ilə əldə edilmiş atəşkəs rejimi müddətində münaqişə ilə bağlı qəbul edilmiş və hazırlanmış bütün sənədlər, münaqişə zəmnində ərazi bütövlüyü, sərhədlərin toxunulmazlığı və suverenlik prinsiplərinin əsası olaraq məhz BMT-nin yuxarıda qeyd edilmiş qətnamələrini götürmüşdür.

***2. Güc tətbiqi və Qarabağ***

Güc tətbiqi prespektivindən baxdıqda isə Nizamnamənin 2 (4)-cü maddəsi və qətnamələr birlikdə oxunmalıdır.

Qətnamələr Dağlıq Qrabağ və onun ətrafındakı ərazilərin aidiyyatı ilə bağlı heç bir şübhəyə yer qoymur. Bu ərazilər Azərbaycan Respublikasına aiddir və Azərbaycan Respublikasının sərhədləri daxilindədir. Azərbaycanın ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı dedikdə də məhz Qətnamələrin nəzərdə tutduğu kimi, işğalçı qüvvələrin və işğal üçün cəlb edilmiş qüvvələrin Azərbaycan ərazisini tərk etməsi və Azərbaycan suverenliyinin bu ərazilərdə təmin edilməsi anlaşılır.

Təhlükəsizlik Şurası Qətnamələrlə tərəflərdən davamlı və effektiv atəşkəsin təmin edilməsini və münaqişənin dinc vasitələrlə həllini istəyir. Eyni zamanda qətnamələr bu istiqamətdə atılan müxtəlif addımları dəstəkləyir.

Bu baxımdan BMT Təhlükəsizlik Şurasının Qətnamələri silahlı münaqişənin (güc tətbiqinin) dayanmasına, işğalın nəticələrinin aradan

[82] SC Resolution 874, S/RES/874 (1993) 14 October 1993, Preamble para 3.
[83] Yenə orada, para. 6.

qaldırılmasına, *status quonun* və cəbhə xəttinin olmamasına istiqamətlənmiş sənədlərdir. Bu xüsusda Qətnamələrin tərəflərdən hər hansı birinə məqsədinə nail olmaq üçün güc tətbiq etmək hüququ verdiyi qənaətinə gəlmək çətindir.

Bununla belə, BMT Təhlükəsizlik Şurası qətnamələrin icra edilməsi üçün BMT Nizamnaməsinin 42-ci maddəsi əsasında hərbi olmayan təsir vasitələrindən, başqa sözlə, sanksiyalardan bu vasitələr effektiv olmadıqda isə hərbi vasitələrdən istifadə etməmişdir. Halbuki bütün qətnamələrin sonunda Təhlükəsizlik Şurasının məsələ ilə aktiv məşğul olacağı qeyd edilmişdir. Danışıqlar prosesinin uzunmüddətli olmasına və işğalda olan ərazilərdən işğal qüvvələrinin çıxarılmamasına baxmayaraq, BMT Təhlükəsizlik Şurası işğal faktının aradan qaldırılmasına istiqamətlənmiş tədbirlər həyata keçirməmiş, beləliklə də, özü qəbul etdiyi qətnamənin ziddinə davranmışdır. Başqa təbirlə ifadə etsək, işğalın aradan qaldırılması tələb edilmiş, amma bunun üçün əməli tədbir görülməmişdir.

Eyni zamanda BMT Təhlüksəzilik Şurası Azərbaycanın işğal faktını aradan qaldırması üçün güc tətbiq edilməsi tədbirlərini görməməsi üçün məhdudlaşdırmalar da müəyyən etməmişdir. Ancaq danışıqlar nəticəsiz olsa, Azərbaycanın güc tətbiq edə biləcəyini təsbit də etməmişdir.

Bu baxımdan qətnamələrin Azərbaycanın ərazilərinin işğal faktını tanıması, Azərbaycanın ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığını qeyd etməsi fonunda, işğalın aradan qaldırması üçün Azərbaycanın birtərəfli qaydada güc tətbiq edə bilməsinin hüquqi əsasının nə olması aydınlaşdırılması vacibdir. Başqa ifadə ilə, işğal faktı təsdiq edilmiş olması və işğal faktının özü Azərbaycana qətnamələri icra etmək üçün birtərəfli qaydada güc tətbiq etmək imkanı verirmi?

Aydındır ki, əgər beynəlxalq sənədlərlə işğal faktı tanınırsa, bu işğal altında olan ərazinin təcavüzə məruz qalmış dövlətə aid olmasının da tanınmasıdır. Qarabağ münaqişəsində bununla bağlı tərəddüd yoxdur.

Ərazi münaqişələri zamanı işğalın güc tətbiq etməklə aradan qaldırılması və belə hərbi əməliyyatların hüquqi əsası əvvəlki bölmədə müzakirə edildi.[84] Azərbaycanın siyasi, hərbi və iqtisadi gücü ona beynəxalq hüquqda mövcud olan imkanlardan uyğun olanını seçmək imkanı vermiş idi.

2020-ci ilin payızında Azərbaycan Respublikası işğal edilmiş ərazilərdən, eləcə də Ermənistan ərazisindən 2020-ci il ərzində ona qarşı başlamış və sistematik hal almış silahlı hücumların qarşılıq vermiş və özünü müdafiə hüququndan istifadə etmişdir.

Azərbaycan Nizamnamənin 51-ci maddəsindəki özünümüdafiə hüququnu əsas almışdır, amma Azərbaycanın bu istinadı edə bilməsi üçün 90-cı illərdə qəbul edilmiş və onun ərazi bütövlüyünü və sərhədlərinin toxunulmazlığını tanıyan qətnamələrə istinad etmişdir. Bu qətnamələri təkbaşına icra etdiyini

[84] Yuxarıda Fəsil II, paraqraf F, 14-16.

bildirmişdir.[85] Qətnamələr və Nizamnamə qətnamələri təkbaşına icra etmək hüququnun olduğunu təsbit etməsə də, Azərbaycana qarşı silahlı hücumlar və onların sistematik xarekter alması qətnamələrin icrası üçün lazımi şəraiti Nizamnamənin 51-ci maddəsində göstərilən özünümüdafiə hüququ çərçivəsində mümkün etmişdir.

Hərbi əməliyyatlar 10 noyabr 2020-ci il tarixində Azərbaycan Respublikası, Ermənistan Respublikası və Rusiya Federasiyası arasında imzalanmış və ictimaiyyətə təqdim edilmiş atəşkəsin əldə edilməsinə dair üçtərəfli bəyanatla tamamlanmışdır. Qeyd edilməlidir ki, Bəyanat münaqişənin güc tətbiq etmədən BMT Nizamnaməsinin 2(3)-cü bəndinin istədiyi kimi dinc yolla sonlandırılması və həlli üçün ciddi sənəddir. Bəyannamə sülh sazişi yaxud müqaviləsi deyildir. Münaqişə tərəflərinin bir-birinin ərazi bütövlüyünü tanıması ilə bağlı müddəalar da sənəddə yer almamışdır. Bununla belə, həm Ermənistanın, həm də Azərbaycanın ərazi bütövlüyünü tanıyan və BMT Təhlükəsizlik Şurasının üzvü olan Rusiya Federasiyası sənədin tərəfidir. Eyni zamanda, sənəd Qarabağın dağlıq hissəsinə yaxud oradakı əhaliyə ayrıca statusun verilməsi məsələsini də qeyd etmir. Sənəd bir baxımdan Rusiya və Yaponiya arasında olduğu kimi sülh sazişi olmadan sabit sülh vəziyyətinin formalaşmasını mümkün etmək potensialına malikdir. Sənəd, həmçinin BMT-nin məsələ ilə bağlı qəbul etdiyi qətnamələrdə qeyd etdiyi effektiv və davamlı atəşkəsin təmin edilməsi potensialına malikdir.

Bəyanat hərbi əməliyyatların dayandırılması, sülhməramlı qüvvələrin əraziyə daxil olması, işğal altında olan bəzi torpaqların geri qaytarılması, eyni zamanda, keçmiş DQMV ərazisindəki hərbi yolla işğaldan azad edilməmiş ərazilərə məcburi köçkünlərin geri qaytarılması üzərində qurulmuş sənəddir. Nəzərə alınmalıdır ki, Dağlıq Qarabağ bölgəsi BMT-nin qətnamələri ilə Azərbaycanın ərazisi kimi tanınır və Azərbaycan Respublikasının DQMV-nin ləğv edilməsi barədə 26 noyabr 1991-ci il tarixli, 279-XII saylı qüvvədə olan qanunu vardır.

Qeyd edilməlidir ki, Bəyanat "Dağlıq Qarabağ ərazisi" terminindən istifadə edir. Bununla belə, bu ərazinin nələrdən ibarət olması qeyd edilmir. Bəyanatın icrası ilə bağlı Rusiya sülhməramlı qüvvələrinin nəzarət etdiyi ərazilər Bəyanatdakı "Dağlıq Qarabağ ərazisi" termininin nəyə istinad olduğunu göstərir.

Bəyanatın nəticəsi olaraq Ermənistan Azərbaycanın Ağdam, Kəlbəcər və Laçın rayonlarını 26 noyabr 1991-ci ilə qədər olan inzibati ərazi sərhədləri çərçivəsində geri qaytarıldı. Bəyanatda qeyd edilən rayonların inzibati ərazi sərhədlərinin hansı tarixdən əsas alındığı qeyd edilməsə də, Bəyanatın icrası

[85] Prezident İlham Əliyev: "Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsi hər bir ölkənin özünümüdafiə hüququnu təmin edir", https://apa.az/az/xarici_siyaset/Prezident-Ilham-liyev-Birlsmis-Milltlr-Tskilatinin-Nizamnamsi-hr-bir-olknin-ozunumudafi-huququnu-tmin-edir-612098 (son baxış tarixi 25 yanvar, 2021).

zamanı yaranmış vəziyyət əsas olaraq məhz 26 noyabr 1991-ci ilə qədər olan sərhədlərin əsas alındığını göstərir.

Nəzərə alınmalıdır ki, bəyanat Azərbaycan Respublikasının DQMV-nin ləğv edilməsi barədə 26 noyabr 1991-ci il tarixli, 279-XII saylı qanununu qüvvədən salmamışdır və Azərbaycan dövləti də bu istiqamətdə addımlar atmamışdır. Əksinə ölkə başçısı dəfələrlə növbəti addımların "vahid dövlət"də birgə yaşayış çərçivəsində olacağını bildirmiş və Dağlıq Qarabağ ərazisinə xüsusi statusun verilməyəcəyini qeyd etmişdir.

Hazırda Azərbaycanın hüququ baxımından Bəyanatda istinad edilən Dağlıq Qarabağ ərazisində mövcud inzibati ərazi bölgüsü və idarə etmə strukturları vardır. Bu qurumlar etnik tərkibi (birgə yaşayış amilini) nəzərə alaraq yenidən formalaşdırıla və fəaliyyətlərini uğurla davam etdirə bilər. Yaxud yerli idarəetmədə Türkiyə təcrübəsi əsas alınaraq Azərbaycanın bələdiyyə idarəetmə sistemi təkmilləşdirilə və tətbiq edilə bilər.

Güc tətbiqi baxımından Azərbaycan dövləti ölkə daxilində hüquq-mühafizə orqanları tərəfindən ictimai asayişin, ölkə əhalisinin təhlükəsizliyinin və əmin amanlığın təmin edilməsi üçün güc tətbiq etmək hüququna malikdir. Burada, əlbəttə ki, Bəyanatın icrası ilə əlaqədar ortaya çıxmış sülhməramlı qüvvələr faktoru vardır. Amma nəzərə alınmalıdır ki, BMT Təhlükəsizlik Şurasının Qətnamələrində deyildiyi kimi Dağlıq Qarabağın ətrafında olan ərazilər kimi, Dağlıq Qarabağın da ərazisində olan işğalçı və işğal üçün cəlb edilmiş qüvvələrin oradan çəkilməsini tələb edir. Bu tələb tam olaraq icra edilməmişdir. Bu baxımdan Dağlıq Qarabağ ərazisində olan sülhməramlı qüvvələr yeni *status quo* yaratmaq deyil, BMT Təhlükəsizlik Şurasının Qətnamələri deyildiyi kimi Dağlıq Qarabağın ərazisində olan işğalçı və işğala cəlb edilmiş qüvvələrin oradan çıxarılmasını da təmin etməlidir. Atəşkəsin davamlı sülhə çevrilməsinin şərti məhz BMT Təhlükəsizlik Şurasının tələb etdiyi kimi Azərbaycan suverenliyinin Dağlıq Qarabağ ərazisində də təmin olunması ilə mümkündür.

Nəzərə alınmalıdır ki, ermənilərin son yüzillikdə nümayiş etdirdiyi təcrübə məhz vəziyyəti öz mövqelərini gücləndirmək, beləliklə də ərazi iddialarını, əraziləri mənimsəmək siyasətini reallaşdırmaq üçün istifadə etmək istiqamətində olmuşdur. Bunun üçün erməni tərəfi çox hallarda nə imzalarına, nə də verdikləri sözlərə əməl etmişdir. Tarix ermənilərin daim hüquqa deyil, məhz gücə hörmət etdiyini sübut etmişdir. Bu daim belə qalacaqdır və Azərbaycanın güclü və ayıq olmaqdan başqa yolu yoxdur.

## Nəticə

Güc elə bir nəsnədir ki, həm insan münasibətlərində, həm ölkədaxili hüquqda, həm də beynəlxalq hüquqda həlledici rol oynayır. Gücün qadağan edilməsi mümkün deyildir. Güc insan təbiətinin elə bir parçasıdır ki, onu insandan və insanın qurduğu nəsnələrdən ayırmaq qeyri-mümkündür. İnsan və onun qurduğu nəsnələr gücə olduğu kimi heç bir digər amilə reaksiya

vermir. Yalnız güc tətbiqinin qarşısında bu və digər hərəkətin edilməsi yaxud edilməməsi yolunu tutur.

Güc daxili hüquqda olduğu kimi, beynəlxalq hüquqda da hüququn aliliyinin təmin edilməsinin önəmli elementidir.

Gücdən istifadəni sivilləşdirmək, gücün istifadəsi üçün legitim əsaslar yaratmaq mümkündür. BMT Nizamnaməsini, eləcə də onlarla beynəlxalq hüquqi sənədi hazırlayanlar məhz bu nöqteyi-nəzərdən yanaşaraq gücün istifadəsini sivilləşdirməyə çalışmışdır. İkinci Dünya Müharibəsindən sonra bu müəyyən qədər mümkün olmuş, hətta Sovet İttifaqının mövcudluğunun son illərində işğal (İraqın Küveyti işğalı) faktına qarşı birgə (kollektiv) güc tətbiqi nümunəsi belə olmuşdur. Amma bu öz nümunəsində yeganə hal olmuş və bir daha təkrarlanmamışdır, hətta eyni tarixi dövrdə baş vermiş Azərbaycan Respublikasının ərazilərinin işğalına qarşı eyni mövqe nümayiş etdirilməmişdir.

Gücün istifadəsinin sivilləşdirilməsi və faydalı olduğu yerlərdə beynəlxalq hüququn pozulmasına qarşı istifadəsi digər tərəfdən beynəlxalq hüququn aliliyinin təmin edilməsi üçün önəmlidir. Dövlətlər beynəlxalq hüququn aliliyinin təmin edilməsi üçün güc tətbiqinin effektiv mexanizmini BMT Təhlükəsizlik Şurasının timsalında yaratdıqlarını düşünsələr də, son onilliklərin təcrübəsində bu mexanizmin effektiv olmadığı görünmüşdür. Əksinə, Avropa Birliyində iqtisadi sahədə Avropa Birliyi və üzv dövlətlər arasında mövcud olan ortaq səlahiyyətlərlə (*shared competences*) bağlı *subsidiarlıq prinsipinin*[86] beynəlxalq hüququn aliliyinin təmin edilməsi üçün legitim güc tətbiqi hallarında istifadəsi düşünülə bilər. Burada, əlbəttə, "güc tətbiqi"-nin onun insan tələfatı (kombatant yaxud qeyri-kombatant) ilə bağlı nəticələrinin və ən əsası dövlətlərin öz mülahizələrinə görə hərbi gücdən istifadəyə meyili olmaları ciddi nəzərə alınmalıdır. Bununla belə, mövcud dünyanın hərbi gücün tətbiqi ilə bağlı vəziyyəti məhz subsidiarlıq prinsipində olduğu kimidir. Belə ki, siyasi və hərbi qüdrəti olan dövlətlər gücü lokal qaydada (bəzən (ya da daha çox) beynəlxalq sülh və təhlükəsizlik üçün deyil, məhz öz təhlükəsizlikləri üçün) tətbiq edir, bəzi hallarda bunun BMT Təhlükəsizlik Şurasına müraciətlə qanuniləşdirilməsi yolunu tutur, bəzən isə buna ehtiyac belə duymurlar. Bu baxımdan mövcud beynəlxalq hüquq normaları güc tətbiqi üçün istifadə bəzi hallarda isə sui-istifadə edilir. Azərbaycan kimi ərazisi işğalda olmuş dövlətlərə münasibətdə isə beynəlxalq hüquqi baza olsa da, işğal faktının aradan qaldırılması üçün kifayət edəcək səylər ortaya qoyulmamışdır. Qarabağ münaqişəsi timsalında işğala məruz qalmış dövlətin ərazilərini güc tətbiq etməklə azad etməsi beynəlxalq hüquqda mövcud olan mexanizmlərin yetərsiz olduğu hallarda dövlətin

[86] The principle of subsidiarity | Fact Sheets on the European Union | European Parliament (europa.eu), https://www.europarl.europa.eu/factsheets/en/sheet/7/the-principle-of-subsidiarity (son baxış tarixi 25 yanvar, 2021).

birtərəfli qaydada güc tətbiq etməsi ilə məsələlərin həllinin mümkünlüyünü və qanuniliyini bir daha nümayiş etdirdi.

Dövlətlərin beynəlxalq hüququn aliliyinin təmin edilməsi üçün güc tətbiq etmək hüququnun və vəzifəsinin olduğu Azərbaycanın Qarabağ münaqişəsinin həllində güc tətbiq etməsi ilə bir daha təsbit edilmiş olur.

Dünya dövlətlərinin, eləcə də beynəlxalq təşkilatların, o cümlədən BMT Təhlükəsizlik Şurasının Azərbaycanın bu hüququnun olmasının əksini müəyyən etməməsi isə bu hüququn olduğunu və işğalçı dövləti qətnamələrin icrasına məcbur etmək üçün istifadə edilə biləcəyini bir daha göstərir.

Nəzərə alsaq ki, sülh müqaviləsi imzalanmayıb Azərbaycanın güc tətbiq etmək hüququndan istifadə seçimi, ələlxüsus da, Ermənistan ərazisindən Azərbaycana qarşı olan hücumlara münasibətdə davam etməkdədir.